AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZIRLİYİ

AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTU
SALYAN FİLİALI

**A.H. Dəmirov, Ş.N. İsmayılov, Q.F. Hüseynov**

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI, ONLARIN TƏMİNATI

## *Dərs vəsaiti*

*Azərbaycan Respublikası təhsil nazirinin 29.09.2006-cı il tarixli 708 saylı əmri ilə təsdiq edilmişdir.*

www.preslib.az
PREZIDENT
KITABXANASI

**Bakı – Mütərcim – 2010**

**Tərtib edənlər:**
***Aslan Həsən oğlu Dəmirov***
*Azərbaycan Müəllimlər İnstitutu Salyan filialının direktoru,*
*sosiologiya elmləri doktoru, dosent, Əməkdar müəllim*

***Şahismayıl Namaz oğlu İsmayılov***
*Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının baş müəllimi,*
*BDU-nun dissertantı, ali dərəcəli tarix müəllimi,*
*"Qızıl qələm" mükafatı laureatı*

***Qənimət Fərman oğlu Hüseynov***
*Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının baş müəllimi,*
*hüquqşünas*

**Elmi redaktor:**
***Süleyman Abbas oğlu Məmmədov***
*Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor*

**Rəyçilər:**
***D.H. Qüdrətov*** *tarix elmləri doktoru, professor,*
***S.Q. İbrahimov*** *fəlsəfə elmləri namizədi, dosent,*
***F.M. Əfəndiyev*** *Mingəçevir şəhər məhkəməsinin sədri*
***M.İ. Məmmədov*** *Ağdaş şəhər məhkəməsinin sədri*
***E.H. Nəsirov*** *BDU-nun konstitusiya kafedrasının baş müəllimi*

**Redaktor:**
***Anar Orucəli oğlu Rzayev***
*hüquqşünas*

**A.H.Dəmirov, Ş.N.İsmayılov, Q.F.Hüseynov.** İnsan və vətəndaş hüquqları, onların təminatı. *Dərs vəsaiti*. – Bakı: Mütərcim, 2010. –80 s.

D $\frac{4302000000}{026}$ 98-10

© AMİ-nin Salyan filialı, 2010

## MÜNDƏRİCAT

**Ön söz**

**Giriş**

**İnsan hüquqlarının və azadlıqlarının əsas mahiyyəti**

**Ombudsman institutunun əsas mahiyyəti, insan hüquq və azadlıqlarının müdafiəsində onun rolu**

**Beynəlxalq konvensiya və beynəlxalq hüquq normalarına uyğun qəbul edilən qanunlar hüquq və azadlıqlarımızın təminatçısıdır**

**Qadın və uşaq hüquqlarına dair**

**Ailə nikah münasibətlərinin hüquqi cəhətdən tənzim edilməsi**

**Nikah müqaviləsi**

**Övladlığa götürmə**

**Qəyyumluq və himayəçilik**

**İşə qəbulun və işdən çıxmanın hüquqi cəhətdən tənzim edilməsinin bəzi məsələləri**

**Sual və cavablar**

**Sual və cavablar**

**İstifadə olunan ədəbiyyat**

# ÖN SÖZ

*Dövlət iki şeydən sarsıla bilər; Günahkar cəzasız qalanda, günahsıza cəza veriləndə.*

**HEYDƏR ƏLİYEV**

***Azərbaycan Respublikasının ümummilli lideri***

1995-ci ildə siyasi plüralizm şəraitində ümumxalq səsverməsi yolu ilə suveren dövlətin ilk Konstitusiyası qəbul edilmiş, Azərbaycan dünya birliyinin bərabər hüquqlu dövlətləri sırasına daxil olmuşdur.

1978-ci ildən fəaliyyətdə olan son Konstitusiyaya nisbətən hazırkı Konstitusiya siyasi, iqtisadi və ictimai cəhətləri ilə, ümumbəşəri dəyərləri, demokratik – dünyəvi mahiyyət daşıyan cəhətləri ilə kəskin surətdə fərqlənir.

Konstitusiyamızda əsas insan və vətəndaş hüquqları və azadlıqları beynəlxalq hüquq normalarına, bəşəri dəyərlərə söykənən prinsipləri əsasında təsbit edilməsi onu göstərir ki, Azərbaycanda hüquqi, demokratik dövlətin təməli qoyulmaqdadır.

Azərbaycan Respublikası Konstitusiyası təsbit edir ki, hər bir kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

Respublika Konstitusiyası ölkə ərazisində yaşayan bütün xalqların bərabər hüquq və azadlıqlara sahib olduqlarına zəmanət verir. Milli, irqi mənsubiyyətlərə əsaslanmaqla vətəndaşın qanunla qorunan hüquq və azadlıqlarının pozulmasına qəsd edilməsinə görə qanun cinayət və başqa məsuliyyət növləri müəyyən edir.

Konstitusiyaya əsasən hər bir kəsin azadlıq hüququ vardır, qanuni əsaslar mövcud olmadıqda insan azadlıqdan məhrum edilə bilməz.

Yalnız cinayət etməkdə təqsiri olan şəxs cinayət məsuliyyətinə cəlb edilə və azadlıqdan məhrum etmə cəzasına məhkum oluna bilər.

Hüquqların Konstitusiyamızda bu qaydada təsbit edilməsi beynəlxalq hüquq normalarına tam cavab verməklə, inzibati-amirlik dövründə hökm sürən məhdudiyyətləri aradan qaldırır, azadlıq və hüquqları dolğunluqla həyata keçirmələri üçün insanlara geniş imkanlar yaradır.

Kitabda insan və vətəndaş hüquq və azadlıqlarının konstitusion mahiyyətinə, Beynəlxalq Konvensiyaların bu hüquq və azadlıqlarla bağlı ümumi müddəalarına, qadın və uşaq hüquqlarının mahiyyətinə, sual və cavablara geniş aydınlıq gətirilmişdir.

# GİRİŞ

*Azərbaycan Respublikasının yaradıcısı, ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının memarıdır!*

Əsas qanunumuzun xeyli hissəsi insan hüquq və azadlıqlarına həsr olunub.

Hər bir xalqın tarixində xüsusi qeyd edilən önəmli günlər var. Gənc Azərbaycan dövlətinin tarixində 12 noyabr Konstitusiya günü belə günlərdən biridir.

1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, yeni parlamentin təşkili üçün seçkilər keçirilməsi dövlət quruculuğu sahəsində strateji proqramın ilk mərhələsi oldu.

Yeni Konstitusiyanın hazırlanması üçün 1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılmışdır. Ancaq ötən müddətdə heç bir iş görülməmişdir. 1991-ci il oktyabrın 18-də isə «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı» qəbul olunmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi «Bu çox mühüm sənəddir və həmin sənəddə Azərbaycan dövlət müstəqilliyi haqqında çox dəyərli müddəalar var».

Ancaq bu sənədin həyata keçirilməsi də gecikmişdi. Çünki dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı oktyabrın 18-də qəbul olunsa da, onu təsdiq edən ümumxalq referendumu dekabrın 29-da keçirilmişdi. Ölkənin dövlət orqanları bundan sonra da müstəqil Azərbaycan Konstitusiyasını yaratmaqla məşğul olmamışdı. Üç il yarımdan çox vaxt keçsə də, hələ Azərbaycan Konstitusiyası qəbul edilməmişdi.

Müstəqil Azərbaycanın Konstitusiyasının yaradılmasını xalqımızın xilaskar oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev öz üzərinə götürdü.

1993-cü ilin oktyabrında Azərbaycanda yeni Konstitusiya hazırlanması üçün təşəbbüs göstərilsə də, siyasi vəziyyətin gərginləşməsi, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri, eyni zamanda qarşıya çıxan bir sıra təxirəsalınmaz vəziyyətlər bu təşəbbüsün gerçəkləşməsini gecikdirdi. 1995-ci ilin iyul ayında Milli Məclisin iclasında prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan komissiya təşkil edildi. Bu komissiyaya görkəmli alimlər, hüquqşünaslar və mütəxəssislər, rəhbər işçilər daxil edildi. 1995-ci il iyun ayının 5-də Konstitusiya Komissiyasının ilk iclası keçirildi. Bu iclasda Konstitusiya komissiyasının qarşısında duran vəzifələr müəyyən edildi. Birincisi, Azərbaycan Respublikasının parlamentinə seçkilər üçün qanun layihəsi hazırlamaq qərara alındı. İlk iclasda bu layihələrin hazırlanması üçün işçi qrupu yaradıldı.

İşçi qrupunun bir neçə variantda hazırladığı layihə Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyasında müzakirə edildi. Komissiyanın ümumi fikrini əks etdirən layihə hazırlandı və Konstitusiya komissiyası adından Heydər Əliyev tərəfindən Milli Məclisə təqdim edildi.

Milli Məclisdə başqa layihələr də nəzərdən keçirildi. Bütün müzakirələrdən sonra avqustun 12-də Milli Məclis Heydər Əliyev tərəfindən təqdim edilmiş layihəni ətraflı müzakirə edib seçkilər haqqında qanunu qəbul etdi.

Milli Məclisin qəbul etdiyi qanun Azərbaycan Prezidenti tərəfindən təsdiq olundu. Cənab Heydər Əliyev o zaman bildirmişdir ki, «Milli Məclisin gördüyü işlər layihəni təkmilləşdirib və hesab edirəm ki, qanun demokratik prinsiplərə cavab verən, demokratik parlament yaratmaq üçün əsas olan və ümumiyyətlə, respublikamızda dövlət quruculuğu sahəsində apardığımız işlər sırasında çox görkəmli yer tutan bir sənəddir. Qanunun qəbul olunması respublikamızda dövlət quruculuğu sahəsində görülən işlərin bir mərhələsidir». Xalqımızın ümummilli lideri Heydər Əliyev Yeni Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edirdi: «Biz elə bir layihə hazırlamalı və elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun».

Prezident Heydər Əliyev Konstitusiyanın yaradılmasında həm tarixi keçmişimizin dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürürdü.

Yeni Konstitusiyada dövlət quruculuğu sahəsində dünya təcrübəsi ümumiləşdirilməli və ondan faydalı istifadə edilməli idi. Azərbaycanda müxtəlif xalqların və millətlərin nümayəndələrinin yaşamasını nəzərə alaraq dövlətimizin başçısı bərabər hüquqların təmin edilməsi, yəni dinindən, millətindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün insanların eyni hüquqlara malik olması və bu hüquqlardan faydalı istifadə etməsi imkanlarının Konstitusiyada əks olunmasını zəruri sayırdı. Prezident Heydər Əliyev eyni zamanda seçib-seçilmək hüquqlarının təmin edilməsinin Konstitusiyada əsas müddəalardan biri kimi əks olunmasını məsləhət görürdü.

Heydər Əliyevin başçılığı ilə 6 ay ərzində yeni Konstitusiya layihəsi hazırlandı və ümumxalq müzakirəsinə verildi. Dövlətimizin başçısı demişdir ki, komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm. Ona görə də bu sənədin hazırlanmasında xeyli vaxt sərf etmişəm. «Haqqım var deyim ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atır və bu layihəyə görə tam cavabdeh olduğunu bu gün bəyan edirəm».

Konstitusiya layihəsi mətbuatda dərc edildikdən sonra o respublikanın hər yerində keçirilən yığıncaqlarda, iclaslarda müzakirə edilmişdi. Layihədə ayrı-ayrı vətəndaşlardan, təşkilatlardan daxil olmuş üç mindən çox təklif, əlavə və düzəlişdən istifadə edilmişdir. Müzakirələr demokratik şəraitdə keçirilmişdi. Layihəni hazırlayan komissiyanın sədri Heydər Əliyevin təşəbbüsü ilə daha çox maraq doğuran 21-ci maddənin – Azərbaycan dövlət dilinə aid məsələnin xüsusi müzakirəsi təşkil edilmişdi. 1995-ci il oktyabrın 14-də Konstitusiya komissiyasında, oktyabrın 31-də isə Azərbaycan Milli EA-da alimlərin, ziyalıların, dilçi mütəxəssislərin iştirakı ilə keçirilən müzakirələrdə, noyabrın 2, 5 və 10-da yenidən Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında 21-ci maddə ayrıca geniş müzakirə edilmişdi. Belə müzakirələrdən sonra Konstitusiya layihəsi ümumxalq referendumuna təqdim edilmişdir. 1995-ci il noyabrın 12-də Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil respublikanın Konstitusiyası ümumxalq səsvermə yolu ilə qəbul edildi, referendumda seçicilərin 86%-i iştirak etdi və onların 91,9%-i Konstitusiya layihəsini bəyənərək onun qəbuluna səs verdi. Azərbaycan Respublikasının yeni Konstitusiyasında indiki və gələcək nəsillər qarşısında Azərbaycan xalqının arzusu aşağıdakı şəkildə bəyan edilir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək.

Yeni Konstitusiya 5 (beş) bölmədən, 12 (on iki) fəsildən və 158 (yüz əlli səkkiz) maddədən ibarətdir. Demokratik prinsipləri əsas tutaraq Əsas Qanunda insan hüquqlarına, azadlıq və vəzifələrinə geniş yer verilir. Bunlar ikinci bölmədə 48 (qırx səkkiz) maddədən ibarət olub, ümumi mətnin içində bir hissəsini təşkil edir. Hər bir şəxs doğulduğu gündən ömrünün sonunadək toxunulmaz, pozulmaz, ayrılmaz azadlıq hüquqları ilə təmin edilir.

Tarixdə ilk dəfə olaraq Azərbaycan dövlətinin əsasları müstəqil Konstitusiya vasitəsilə müəyyənləşdirilib. Yeni Konstitusiyaya əsasən Azərbaycan dövləti hüquqi, dünyəvi, unitar respublikadır. Dövlət hakimiyyəti demokratik əsaslarla təşkil edilir. 7-ci maddədə deyilir ki, dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir. Bu üçlük qanunverici hakimiyyətdən – Milli Məclisdən; icra hakimiyyətindən – prezident hakimiyyətindən; məhkəmə hakimiyyətindən – Azərbaycan məhkəmələrindən ibarətdir. Hər bir hakimiyyətin hüquq və vəzifələri, səlahiyyətləri tam demokratik prinsiplərə əməl edilməsi yolu ilə qanunla müəyyənləşdirilir. Hakimiyyətlərin tarazlığı saxlanılır. Bir hakimiyyətin başqasından asılı olmaması təmin edilir. 109-cu maddədə Milli Məclisin və məhkəmə hakimiyyətinin – Konstitusiya Məhkəməsinin prezident üzərində nəzarəti təsbit olunur. Başqa maddə ilə prezidentə qanunlara veto qoymaq hüququ verilir. Eyni zamanda hakimiyyət orqanlarının birinin başqasına nəzarəti də müəyyən edilir.

12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası XX əsrdə onun dördüncü Konstitusiyasıdır. 1921-ci ildə Azərbaycanda birinci, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü

Konstitusiya qəbul edilmişdi. Yeni Konstitusiya özündən əvvəlkilərdən köklü surətdə fərqlənməklə müstəqil Azərbaycan dövlətinin əsas qanunudur, suverenliyinin ali təsdiqidir. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası suveren dövlətin bütün sahələrdə fəaliyyətini təmin edir, Azərbaycan Respublikasında yaşayan hər bir vətəndaşa demokratiya nemətləri bəxş edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bildirmişdir ki, yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu daimi olacaqdır, xalqımız bu Konstitusiyanın müddəalarından istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir.

Cənab Heydər Əliyev ideya müəllifi olduğu və yaratdığı müstəqil Azərbaycan Konstitusiyasının həyata keçirilməsinin də həqiqi qarantı idi. Bu Konstitusiyanın qəbul edilməsindən sonra ölkəmizdə bütün sahələrdə ciddi dəyişikliklər baş vermişdir. Bunları nəzərə alaraq dövlətimizin başçısı Heydər Əliyev 2002-ci ildə Azərbaycan Konstitusiyasına dəyişikliklər edilməsi haqqında öz təkliflərini irəli sürdü. 2002-ci il avqustun 24-də keçirilən referendumda xalqımız Konstitusiyaya prezident Heydər Əliyev tərəfindən edilən dəyişikliklərə səs verdi.

Qurucusu və memarı Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikası elə bu müdrik və xilaskar ümummilli liderin rəhbərliyi ilə dünya birliyinə uğurla inteqrasiya olmuşdur. Fəxrlə qeyd etmək lazımdır ki, hazırda bu tarixi missiyanı cənab Heydər Əliyevin ləyaqətli davamçısı, bütün dünyada görkəmli siyasətçi kimi tanınan prezident İlham Əliyev şərəflə davam etdirir.

# İNSAN HÜQUQLARININ VƏ AZADLIQLARININ ƏSAS MAHİYYƏTİ

Hüquqi dövlətin başlanğıc nöqtəsi və son məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının təminatıdır. Məhz hüquqi dövlətdə azadlığın, ədalətin və ümumi sülhün əsasını təşkil edən insan ləyaqəti etiraf olunur və kütləvi hakimiyyət tərəfindən qorunur. İnsan hüquqları fərdin özünə məxsusluğu, bütövlüyü və azadlığı ilə bağlıdır.

İnsan hüquqları hər bir insanın mövcudluğunun və birgə yaşayışının bünövrəsi olmaqla, müasir dünyada sülhün və tərəqqinin ifadəsidir. İnsan hüquqları həqiqətən heç bir mədəniyyətə yad deyil və bütün millətlərə xasdır.

İnsan hüquq və azadlıqlarının pozulması nəinki şəxsiyyətə qarşı yönəlmiş bir haldır, həm də sosial və siyasi problem olmaqla dövlətlə cəmiyyət arasında tarazlığın pozulmasına, cəmiyyətin özündə zorakılıq və konfliktlərə səbəb olur.

İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında 4 noyabr 1950-ci ildə Roma şəhərində qəbul edilmiş Avropa Konvensiyasının 2-ci maddəsində göstərilir ki, hər bir insanın həyat hüququ qanunla mühafizə olunur. Cəzalandırılması qanunla nəzərdə tutulmuş cinayətin törədilməsinə görə məhkəmə tərəfindən çıxarılan ölüm hökmünün icrasından başqa, heç kəs qəsdən həyatdan məhrum edilə bilməz.

Aşağıdakı mütləq zərurətlə əlaqədar güc tətbiq edilməsi nəticəsində həyatdan məhrum etməyə bu maddənin pozulması kimi baxılmır.

a) hər hansı şəxsin qanunsuz zorakılıqdan müdafiəsi üçün

b) qanuni həbsin (həyata keçirilməsi) və bu qanuni əsaslarla tutulub saxlanılmış şəxsin qaçışının qarşısının alınması üçün

v) iğtişaşın və ya qiyamın qanuna uyğun surətdə yatırılması üçün.

Konvensiyanın 9-cu maddəsində xüsusi maraq doğurur. Belə ki, burada deyilir ki, hər bir insan fikir, vicdan və din azadlığına malikdir: bu hüquqa öz dini və ya əqidəsini dəyişmək, öz dininə azad surətdə etiqad etmək və ya təkbaşına, yaxud başqaları ilə birgə etiqad etmək, ibadəti, təlimləri dini və mərasim adətlərini açıq və ya şəxsi qaydada yerinə yetirmək azadlığı daxildir.

İnsan hüquqları ideyası öz kökü etibarı ilə qədimlərə getsə də və orta əsrlərdən pöhrələnsə də, yalnız maarifçilik dövründə monarxların istibdadına qarşı mükəmməl fəlsəfi nəzəriyyə kimi təşəkkül tapmışdır. İkinci Dünya müharibəsindən sonra isə siyasi konsepsiya, hüquqi nizamasalma və müasir bilik sahəsi kimi formalaşıb inkişaf etmişdir. 1948-ci il dekabrın 10-da, "Ümumdünya insan hüquqları bəyannaməsi" qəbul ediləndən sonra insanın mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının ümumi dairəsi genişlənməyə başlamış, 1975-ci ildə Avropada Təhlükəsizlik və əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin Yekun Aktının qəbulundan sonra isə insan hüquqları beynəlxalq davranışın hamılıqla etiraf olunan normasına çevrilmişdir. İnsan hüquqlarının qorunması BMT-nin əsas vəzifəsidir. 1990-cı il noyabrın 21-də qəbul olunmuş Yeni Avropa üçün Paris Xartiyasında və 1993-cü il iyunun 25-də Ümumdünya Konfransında qəbul olunmuş tədbirlər Proqramında və Vyana bəyannaməsində insan hüquqlarına hörmət dövlətlərin ən birinci vəzifəsi kimi müəyyənləşdi, onların gözlənilməsi "azadlığın, ədalətin və sülhün əsası" kimi götürüldü.

Respublikamızın qüvvədə olan 12 noyabr 1995-ci il tarixli Konstitusiyası bu normaları özündə əks etdirmişdir. Məhz bu baxımdan Konstitusiyamız mütərəqqi siyasi-hüquqi sənəd olmaqla bütünlüklə, xalqın iradəsini ifadə etməsi, sosial ədalət, insan və vətəndaş hüquq və azadlıqlarının, digər mühüm prinsiplərin layiqincə təsbit olunması baxımından tariximizə əvəzsiz töhfədir.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Azərbaycan dövləti siyasi-hüquqi potensiyalından tam istifadə etməklə bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və s. hallardan asılı

olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi dövlət orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur.

Konstitusiyanın 52-ci maddəsində deyilir: «Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır». Qanundan göründüyü kimi Azərbaycan Respublikasının ərazisində doğulmuş vətəndaş qanunla ona verilmiş hüquq və azadlıqlardan məhrum edilə bilməz.

İnsan və vətəndaş hüquqları və azadlıqları, şərəf və ləyaqətin müdafiəsi həmişə diqqət mərkəzində olmalıdır. Konstitusiyamızın 46-cı maddəsində hər kəsin öz şərəf və ləyaqətini müdafiə hüququ müəyyənləşdirilir və insan üçün şərəf və ləyaqət toxunulmaz olduğu, dövlət səviyyəsində qorunduğu bildirilir. Yəni hər kəsin şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Hamının ləyaqəti, istisnasız olaraq dövlət tərəfindən qorunur. Heç bir halda şərəf və ləyaqətin alçaldılmasına əsas verilə bilməz.

Azərbaycan Respublikasının Konstitusiyası respublikamızda yaşayan vətəndaşlara milliyyətindən, irqindən və başqa nişanələrindən asılı olmayaraq bərabər hüquq verir. Azərbaycan dili dövlət dili olmasına baxmayaraq Respublikamızda hər bir millətin öz dilində təhsil almasına və mədəniyyətlərindən istifadə etməsinə şərait yaradılıb.

Konstitusiyamızın 57-ci maddəsi vətəndaşlara dövlət orqanlarına şəxsən heç bir vasitədən istifadə etmədən müraciət etmək hüququ verir. Dövlət orqanları onlara edilmiş müraciətə qanunla müəyyən edilmiş müddətdə baxmalı və müraciət edən şəxsə yazılı cavab verməlidir.

Konstitusiyada bu hüququn təsbit edilməsi, həmçinin dövlət orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin fəaliyyətlərini və işlərini heç bir məhdudiyyət olmadan tənqid etmə imkanlarının yaradılması demokratik prinsiplərə uyğunluq baxımından xüsusi diqqətə layiqdir.

Hər bir vətəndaş onu qane etməyən, onun hüquqlarını məhdudlaşdıran, onun qanunla qorunan istək və azadlıqlarına uyğun olmayan hərəkət və hərəkətsizliklərə qarşı çıxış etməyə, bu hərəkət və hərəkətsizlikləri tənqid etməyə, təkliflər verməyə, həmçinin öz müraciətlərinə cavab tələb etməyə haqlıdır.

Konstitusiyamız bu hüquqların icrasını məhkəmə müdafiəsi ilə bağlayır və bu imkanlardan maneəsiz istifadə etmək mexanizmini təsbit edir. Konstitusiyanın bu baxımdan 65-ci maddəsi hüquq və azadlıqların məhkəmə vasitəsi ilə müdafiəsinə təminat verir. Hər bir vətəndaş dövlət orqanlarının, ictimai təşkilatların və vəzifəli şəxslərin qəbul etdikləri qərar və yol verdikləri hərəkət və hərəkətsizliklərdən məhkəməyə şikayət verə bilər.

Bu maddənin anlayışından görünür ki, vətəndaş dövlət və ictimai orqan və təşkilatların kollegial surətdə qəbul etdikləri qərar və qətnamələrdən də şikayət verə bilər və onların bu şikayətlərinin qəbul edilib baxılması məcburidir. Vətəndaşın öz azadlıq və hüquqlarının dolğun surətdə müdafiə edilməsinə nail olması üçün həmçinin Konstitusiya xüsusi norma nəzərdə tutur.

Konstitusiyanın 61-ci maddəsində müəyyən edilir ki, respublikanın hər bir vətəndaşı yüksək keyfiyyətli hüquqi yardım almaq hüququna malikdir. Maddi imkanı yol vermədiyi hallarda hüquqi yardım dövlət vəsaiti hesabına göstərilir.

Bu imkan yüksək əhəmiyyətə malikdir. Ona görə ki, vətəndaşların heç də hamısı öz azadlıq və hüquqlarının hansı yollarla müdafiə edilməsini bilmir, bəzi hallarda isə qanunları düzgün dərk etməməsi üzündən onun azadlıq və hüquqlarından çox-çox kənara çıxan tələblər irəli sürürlər. Bu baxımdan hüquqi yardım alma imkanları bir tərəfdən hüquqların və azadlıqların dolğun surətdə qanunla qorunmasını təmin etməklə yanaşı, əsassız və qanunlara əsaslanmayan iddiaların irəli sürülməsinin qarşısını alacaqdır.

Təqsirsizlik anlayışının Konstitusiya səviyyəsində təsbit edilməsi xüsusi əhəmiyyətlidir.

Konstitusiya müəyyən edir ki, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Yəni təqsiri qanunda nəzərdə tutulduğu qaydada sübut edilmədən şəxs hər hansı cinayətin törədilməsində təqsirli sayıla bilməz. Bu prinsip iki əsas şərtin üzərində dayanıb. Onlardan biri səlahiyyətli orqanın şəxsin təqsirli olması barədə çıxardığı nəticə, ikincisi isə məhkəmənin qanuni qüvvəsini almış təqsirləndirici hökmünün mövcud olmasıdır. Məlumdur ki, bir sıra hallarda şəxsin əməlində cinayət tərkibi olmasına baxmayaraq istintaq və təhqiqat orqanları

hərəkətinin az əhəmiyyətli olmasını, ictimai təhlükəlilik dərəcəsinin az olmasını nəzərə alaraq işlərin icrasına xitam verib, başqa təsir tədbirləri qəbul edilməsini mümkün hesab edirlər.

Konstitusiyanın 63-cü maddəsinin II bəndində göstərilən “şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir” ifadəsilə nəzərdə tutulmuş hüquq norması çox zaman cinayət sübut edilmədiyi halda işin ictimaiyyətin müzakirəsinə verilməsi, şəxsin üzərində təqsirin saxlanılması hallarının qarşısını alacaqdır.

Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu olmaması, qanun pozğunluğu ilə əldə edilmiş sübutlardan istifadə edilməsinin yol verilməzliyi barədə həmin maddənin göstərişləri hüquqi cəhətdən yüksək qiymətləndirilməlidir.

Ədalət məhkəməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

İnsan hüquqları özgəninkiləşdirilə bilməz. Yəni heç kim bu hüquqlardan məhrum oluna, yaxud da könüllü olaraq onlardan imtina edilə bilməz.

Bu gün məqsəd ondan ibarətdir ki, hər bir şəxs insan hüquqlarının həyata keçirilməsində öz məsuliyyətini dərk etsin. Vətəndaşın davranışı qanunun tələblərinə uyğun olmalıdır. Qanunun tələblərinə riayət etməyin zəruri şərti – qanunları bilməkdir.

Cəmiyyətin mənafeyinin, insan və vətəndaş hüquqlarını və azadlıqlarının təmin edilməsi daim diqqət mərkəzində olmalıdır.

## OMBUDSMAN İNSTİTUTUNUN ƏSAS MAHİYYƏTİ, İNSAN HÜQUQ VƏ AZADLIQLARININ MÜDAFİƏSİNDƏ ONUN ROLU

İnsan hüquqları üzrə səlahiyyətli Müvəkkil İnstitutu keçmiş SSRİ ərazisində yaranmış dövlətlər, o cümlədən Azərbaycan Respublikası üçün tamamilə yenilikdir. Lakin bu institut dünya praktikasında insan hüquqlarını müdafiə edən orqanlar sistemində mühüm yer tutur. Müxtəlif ölkədə bu orqan müxtəlif ada malikdir: ombudsman; mediator, nrovoder və i.a. Lakin çoxları tərəfindən etiraf edilən ümumi ad "ombudsman"dır.

Tarixi baxımdan belə bir vəzifə İsveçrədə 1809-cu ildə təsis edilmişdir. Öz uğurları ilə dünyaya səs salan tərəqqi sahibi olan ölkənin nailiyyətlərinin səbəblərindən biri kimi, məhz bu institutun mövcudluğunu hesab etmək olar. Ona görə də ombudsman institutunun yaradılması ideyası geniş yayılmağa başladı. Hal-hazırda dünyanın 100-dən artıq ölkəsində ombudsman mövcuddur. Demokratik prinsiplərə, insan hüquqlarına sadiq olan ölkələrdə dövlət hüquqi quruculuq baxımından bu institutun əhəmiyyəti olduqca böyükdür. Ombudsman dedikdə parlament tərəfindən insanların hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, lakin onlar tərəfindən qəbul edilmiş qərarları dəyişdirmək hüququna malik olmayan etibarlı şəxs başa düşülür.

"Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkil (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1-ci maddəsinə görə «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir».

Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsi, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının və Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması Müvəkkilin səlahiyyətlərinə aid deyil.

Müvəkkil əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər.

Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə amnistiya elan edilməsi barədə təklif verə bilər.

Müvəkkilin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır.

Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurur.

Qanuna görə Müvəkkili Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi üç namizəd arasında Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə seçir.

Azərbaycan Respublikasının Milli Məclisi Müvəkkilin seçilməsi ilə bağlı qərarı qəbul etmədikdə Azərbaycan Respublikasının Prezidenti 15 gün müddətində digər 3 şəxsin namizədliyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

Müvəkkil 7 il müddətinə seçilir. Eyni şəxs Müvəkkil vəzifəsinə yalnız bir dəfə seçilə bilər.

Əgər vətəndaşın hüquqları hər hansı bir şəkildə pozularsa və o, bu barədə pozulmuş hüquqlarının müdafiəsi ilə bağlı şikayət etdikdə şikayətin məzmunu ombudsman haqqında Qanunun ümumi tələblərinə uyğun olmalıdır.

Belə ki, qanunun 9-cu maddəsində konkret olaraq göstərilir ki, insan hüquqlarının pozulmasına dair şikayətin məzmununda aşağıdakılar öz əksini tapmalıdır.

İnsan hüquqlarının pozulmasına dair şikayətdə ərizəçinin adı, atasının adı, ünvanı göstərilməli, eləcə də ərizəçinin hüquqlarını pozmuş qərar və ya hərəkətin (hərəkətsizliyin) mahiyyəti, şikayətin tərtib edilmə yeri, vaxtı və ərizəçinin imzası olmalıdır. Şikayətlə bağlı başqa materiallar və ya məhkəmə tərəfindən çıxarılmış qərar olduqda, şikayətə əlavə edilə bilər.

Şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilmədikdə müraciət anonim hesab edilir və həmin şikayətlərə Qanunun 93-cü maddəsində göstərilən hallar istisna olmaqla baxılmır.

Qanunun 93-cü maddəsində isə deyilir: «Anonim şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilirsə, həmin şikayətlər Müvəkkil tərəfindən baxılmaq üçün qəbul edilə bilər».

Qanuna görə şikayət şifahi verildikdə, Müvəkkil aparatının işçisi şikayətin məzmununu xüsusi blankda qeyd edir və ərizəçi həmin vərəqi imzalayır. Ərizəçinin xahişi ilə Müvəkkil onun barəsində məlumatları gizli saxlamalıdır.

Ombudsmanın birinci xarakterik əlaməti – onun tam müstəqilliyidir. Dünya praktikasına görə, bu orqan parlament tərəfindən təsis olunur və onun qarşısında hesabat verir. Ombudsman parlament tərəfindən, onun səlahiyyətləri müddətinə seçilir. Ombudsmanın əsas iş üsulu vətəndaşların ərizə və şikayətlərini araşdırmaqdır.

Müvəkkillik fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulur.

## BEYNƏLXALQ KONVENSİYA VƏ BEYNƏLXALQ HÜQUQ NORMALARINA UYĞUN QƏBUL EDİLƏN QANUNLAR HÜQUQ VƏ AZADLIQLARIMIZIN TƏMİNATÇISIDIR

### Qadın və uşaq hüquqlarına dair

Demokratiya uğrunda ümumi mübarizədə öz müstəqilliyini və dövlət suverenliyini qazanmış Azərbaycan Respublikası yeni cəmiyyət və milli dövlət quruculuğu prosesini yaşamaqdadır. Respublikamızda qanunun aliliyinin təmin edilməsi hakimiyyətin bölünməsi və məhkəmənin tam müstəqilliyi, onların yalnız qanunlara tabe olması, idarəçiliyin qanunçuluğa əsaslanması, dövlət hakimiyyəti tərəfindən vətəndaşların hüquq və azadlıqlarının qorunması ilə xarakterizə olunan hüquqi dövlətin və ədalətli vətəndaş cəmiyyətinin qorunması indi ən başlıca məqsəd olmalıdır.

1948-ci ildə qəbul edilmiş «Ümumdünya insan hüquqları Bəyannaməsi»nə əsasən hər bir insanın layiqli yaşamaq, azadlıq və xüsusi mülkiyyət hüququ təmin edilməlidir. İnsan hüquqlarının qorunması idarəçiliyin başlıca qayəsi və dövlətçiliyin idealı olmalıdır. Yalnız insan ləyaqəti, azadlıq və bərabərliyi, şəxsiyyətin özünəməxsusluğunu, onun iradə azadlığını, qanunların aliliyini qeyri-şərtsiz qəbul edən və qoruyan dövlət hüquqi, rejim isə demokratik sayıla bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən kişi və qadının eyni hüquqları vardır. Bu maddədə dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən və s. asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

1 iyul 1999-cu il tarixdən qüvvəyə minmiş Əmək Məcəlləsi əmək münasibətlərini tənzimləyən sistemləşdirilmiş qanunverici aktdır. Qüvvədə olan qanunvericilik kişi ilə qadınlara eyni hüquqlar verir. Həmin qanunların əmək münasibətləri sahəsində həyata keçirilməsi qadınların kişilərlə bərabər təhsil və peşə hazırlığının olması, işə qəbul edilməsi, işdə yüksəlməsi, əməyin ödənilməsi, iş və istirahət vaxtı rejimi imkanlarının yaradılmasını təmin edir. Bununla belə, qadın orqanizminin xüsusiyyətlərini nəzərə alaraq, əmək qanunvericiliyi qadınlar üçün bir sıra güzəştlər nəzərdə tutur, qadınlara əməyin analıqla uyğunlaşmasına şərait yaradır, qadın əməyinin və səhhətinin mühafizəsi tədbirlərini nəzərdə tutur. Bundan başqa, qanunvericilik qadınların hüquqi müdafiəsini təmin edir, analara və uşaqlara maddi və mənəvi yardım göstərir, ödənişli məzuniyyətlər verir, azyaşlı uşaqları olan qadınların iş vaxtını qısaldır. Hamilə qadınlar, südəmər və azyaşlı uşaqları olan qadınlar üçün əmək Məcəlləsi ilə əlavə təminatlar müəyyən olunur.

Əmək Məcəlləsinin 117-ci maddəsi uşaqlı qadınların əlavə məzuniyyətlərinin verilməsini aşağıdakı kimi nəzərdə tutur:

– 14 yaşınadək 2 uşağı olan qadınlara 2 təqvim günü;

– 14 yaşınadək 3 və daha çox uşağı olan, həmçinin 16 yaşınadək əlil uşağı olan qadınlara 5 təqvim günü.

Qeyd etmək lazımdır ki, bu əlavə məzuniyyət əsas və əlavə məzuniyyətin (əmək stajına, əmək şəraitinə görə və s.) müddətindən asılı olmayaraq verilir.

Müvafiq iş (vəzifə) mövcud olduqda və həmin iş yerində qadın əməyinin tətbiqi qanunvericiliklə qadağan olmadıqda, ƏM-nin 240-cı maddəsi hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmasından imtina etməyi işəgötürənə qadağan edir. Bu səbəblərə görə əmək müqaviləsi bağlamaqdan imtina etdikdə, qadın imtinanın səbəbi barədə işəgötürəndən yazılı cavab verməsini tələb etmək hüququna malikdir və hüququn müdafiəsi üçün məhkəməyə müraciət edə bilər.

Mövcud qanunvericilik başqa işə keçirilməsi anlayışını hər şeydən qabaq işçinin iş yerinin yaxud onun əmək funksiyasının (peşəsinin, ixtisasının, vəzifəsinin) dəyişdirilməsi ilə bağlayır. Bu halda söhbət əmək müqaviləsinin əsas şərtlərinin dəyişdirilməsindən gedir, başqa işə keçirilmə işçinin işəgötürənlə əmək hüquq münasibətlərinin dəyişdirilməsi deməkdir. Ümumi qayda olaraq, keçirilməyə işəgötürənin təşəbbüsü və yalnız işçinin yazılı razılığı ilə yol verilir.

Bəzi hallarda əmək qanunvericiliyi işçinin daha yüngül işə keçirilməsini işəgötürənin üzərinə qoyur. ƏM-nin 243-cü maddəsinə əsasən və tibbi rəyə uyğun olaraq hamilə qadınlar üçün hasilat və ya xidmət norması azaldılır, yaxud onlar daha yüngül işə keçirilirlər.

Qeyd etmək lazımdır ki, daha yüngül işə keçirilmə halları əmək şəraitinin dəyişdirilməsi zərurəti ilə bağlı olduqda həyata keçirilir. Məsələn, əmək funksiyalarının yerinə yetirilməsi zamanı qadına zərərli istehsal amilləri təsir edir. Əvvəlki işi yerinə yetirməklə yanaşı uşağı yedizdirmək və ya əmizdirmək mümkün olmadıqda da daha yüngül işə keçirilməyə yol verilir. Məsələn, uşağı yedizdirmək üçün iş vaxtı ayırmaq mümkün olmadığı halda (uzaq məsafələrə gedən vaqonların bələdçiləri olan qadınlar) əmək funksiyasını yerinə yetirməklə yanaşı uşağını yedizdirməklə və ya əmizdirməklə qadın çətinlik çəkirsə, bu halda qanunvericilik işəgötürənin üzərinə qoyur ki, qadını daha yüngül işə keçirsin və ya uşağın yedizdirilməsi üçün zəruri şərait yaransın. İşəgötürən qadının ərizəsi ilə uşağı yaş yarımına çatanadək yuxarıda göstərilən şəraitlərdən birini təmin etməyə borcludur. Bu halda, qadınlar başqa yüngül işə keçirilərkən onların əsas vəzifələri üzrə orat əmək haqqı saxlanılır.

Qadın hüquqları haqqında Beynəlxalq Konvensiyalar da qadın hüquq və azadlıqlarının qorunmasında mühüm əhəmiyyət kəsb edir. Belə Konvensiyalardan biri «Qadın barəsində ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiya»dır. Konvensiya BMT Baş Məclisi tərəfindən 18 dekabr 1979-cu ildə qəbul edilmiş və 03 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir.

Bu Konvensiya qadın hüquqlarını tənzimləyən ümumi əhatəli xarakter daşıyan əsas beynəlxalq sənədə çevrilmişdir. Bu sənədin müqəddiməsində qeyd olunur ki, BMT-nin himayəsi altında Konvensiyaların qəbul olunmasına baxmayaraq «qadınlara münasibətdə xeyli diskriminasiya halları qalmaqdadır».

Qadınlara münasibətdə bütün ayrı seçkiliyə qadağa qoyan bir sənədə ehtiyac duyulurdu. Odur ki, qadın hüquqlarının xüsusiyyətlərini nəzərə alaraq digər insan hüquqları fonunda seçilə biləcək xüsusi sənədin qəbul zərurəti ortaya çıxdı.

Mürəkkəblik onda idi ki, qadın və kişilər arasında bərabərliyin möhkəmləndirilməsi qadın hüquqlarının müdafiə olunmasına tam təminat verilirdi. Neytral, yəni qadın və kişilərə münasibətdə eyni mövqedə olan sənədlər qadınların hüquqlarını təmin etmək imkanında deyildir.

Kişilər və qadınlar arasında faktiki hüquq bərabərliyinə nail olmaq üçün Konvensiya ilk növbədə qadınların reproduktiv hüquqlarını, analıq və hamiləlik, qadınlara təhsildə əlavə imkanların verilməsi, ixtisas artırma və s. hüquqları möhkəmləndirir.

Belə model mövcud olan bərabərsizliyin fizioloji, tarixi köklərini nəzərə alaraq bu bərabərsizliyin aradan qaldırılması üçün məqsədyönlü zəmin yaradır.

Konvensiyanın I hissəsinin 1-ci maddəsində deyilir: "Bu Konvensiyanın məqsədləri üçün qadınlar barəsində ayrı-seçkilik anlayışı qadınların ailə vəziyyətlərindən asılı olmayaraq, kişi və qadınların hüquq bərabərliyi əsasında insan hüquqlarının və siyasi, iqtisadi, sosial, mədəni, mülki və hər hansı digər sahələrdə əsas azadlıqların zəiflədilməsinə, yaxud tanınmasının, qadınların onlardan istifadə etməsini, yaxud onları həyata keçirməsini heçə endirməyə yönəlmiş cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyət deməkdir".

Bu Konvensiya qadının və kişinin sosial və mədəni davranış modelinin mövcud olan ənənə və adətlərin dəyərləndirilməsinin zəruriliyini faktiki bərabərliyə nail olunması üsullarından biri hesab edir. 5-ci maddə dövlətlər üzərinə cinslərdən birinin mükəmməl olması və ya üstünlüyü ideyasına əsaslanan xurafatın aradan qaldırılması məqsədilə qadın və kişinin sosial və mədəni davranış modelini dəyişdirməyə imkan verən tədbirlər görmək öhdəliyi qoyur.

Konvensiya qadın hüquqları sahəsində yalnız formal standartlar müəyyən etmir, həm də dövlətlər üzərinə qadınlara münasibətdə cəmiyyətin ənənəvi həyatının bütün sahələrində yaranmış bərabərsizliyi, vəziyyəti dəyişdirmək öhdəliyi qoyur. Bu vaxtdan Konvensiyanın 2-ci maddəsi mühüm əhəmiyyət kəsb edir. Maddədə deyilir: «İştirakçı – dövlətlər qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarını məhkum edir və tarixə salınmadan bütün müvafiq vasitələrə qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi siyasəti yeritməyə razılaşır, bu məqsədlə aşağıdakıları öhdələrinə götürürlər:

a) kişi və qadınların hüquq bərabərliyini öz milli Konstitusiyalarına və digər müvafiq qanunvericiliklərinə daxil etmək, əgər bu indiyə qədər edilməyibsə, bu prinsipin qanunun və digər müvafiq vasitələrin köməyi ilə praktik olaraq həyata keçirilməsini təmin etməyi;

v) lazım olan yerlərdə qadınlar barəsində hər cür ayrı-seçkiliyi qadağan edən müvafiq qanunverici tədbirləri və digər tədbirlər görməyi;

c) qadınların hüquqlarının kişilərlə bərabər əsasda hüquqi müdafiəsini bərqərar etmək və səlahiyyətli milli məhkəmələrinin və digər dövlət idarələrinin köməyi ilə qadınların bütün ayrı-seçkilik hərəkətlərindən təsirli müdafiəsini təmin etməyi;

d) qadınlar barəsində hər hansı ayrı-seçkilik hərəkətlərindən, yaxud fəaliyyətindən imtina etməyi, dövlət orqanlarının və idarələrinin bu istiqamətdə müvafiq hərəkət etməsinə təminat verməyi;

e) qadınlar barəsində hər hansı bir şəxs, təşkilat, yaxud müəssisə tərəfindən ayrı-seçkiliyin ləğv edilməsi üçün bütün müvafiq tədbirlər görməyi;

f) qadınlar barəsində ayrı-seçkilik demək olar qüvvədəki qanunların, qərarların adətlərin və təcrübənin dəyişdirilməsi, yaxud ləğv edilməsi üçün bütün tədbirləri, qanunvericilik tədbirləri daxil olmaqla görməyi;

i) özünün cinayət qanunvericiliyində qadınlar barəsində ayrı-seçkilik sayıla bilən bütün müddəalarını ləğv etməyi.

Qadın hüquqları ilə bağlı mühüm əhəmiyyət kəsb edən Konvensiyalardan biri «Qadınların siyasi hüquqları haqqında Konvensiya»dır. Bu Konvensiya 20 dekabr 1952-ci ildə qəbul edilmişdir. Konvensiya 11 maddədən ibarətdir.

Konvensiyanın 1-ci maddəsində deyilir ki, qadınlar bütün seçkilərdə heç bir ayrı-seçkilik qoyulmadan kişilərlə bərabər şərtlərlə səs vermək hüququna malikdirlər.

Konvensiyanın hər bir maddəsi qadınların siyasi hüquqları baxımından demokratik prinsipləri özündə təsbit edir. Belə ki, ayrı-ayrı maddələrin ümumi məzmunundan aşağıdakı müddəalar daha xarakterikdir. Qadınların heç bir ayrı-seçkilik qoyulmadan kişilərlə bərabər şərtlərlə ictimai dövlət qulluğunda vəzifələr tutmaq və milli qanunla müəyyən edilən bütün ictimai-dövlət funksiyalarını yerinə yetirmək hüququ var.

Beynəlxalq hüquq normalarına və Beynəlxalq Konvensiyalara uyğun qəbul edilən Konstitusiyamızın müvafiq maddələri bu baxımdan Konvensiyanın ayrı-ayrı müddəaları ilə üst-üstə düşür. Konstitusiyamızın 25-ci maddəsi hamının qanun və məhkəmə qarşısında bərabərliyini özündə təsbit edir. Bu hüquqi vəzifə həm kişilərə, həm də qadınlara aiddir. Ona görə ki, onların hüquq bərabərliyini müəyyən edir.

Azərbaycan dövləti irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi və ictimai mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir, hər hansı bir məhdudiyyətə yol verilməsini qadağan edir.

Azərbaycan Respublikasının əsas Qanunu respublika vətəndaşlarına cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ verir. Bu hüquq əsasən vətəndaş heç bir maneə olmadan seçib-seçilmək hüququndan sərbəst surətdə istifadə edir, respublika ərazisində qeydə alınan partiyaların və başqa ictimai təşkilatların tərkibində fəaliyyət göstərmək imkanı qazanır.

Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüquqları barədə Konstitusiyanın 55-ci maddəsində göstərilir ki, vətəndaşlar bu hüquqlarından bilavasitə və ya nümayəndələri vasitəsi ilə istifadə edə bilərlər.

Azərbaycan qadınları ilk dəfə olaraq 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılandan sonra seçmək və seçilmək hüququna malik olmuşdur.

Məlum olduğu kimi, 18 yaşına çatmış hər bir ölkə vətəndaşı sərbəst surətdə Prezidentin və Milli Məclisin deputatlarının seçilməsində iştirak edir, qapalı səsvermə yolu ilə namizədlərdən hər hansına öz səsini verir. Sərbəst seçki hüququndan istifadə edən hər bir vətəndaş dövlətin idarə olunmasına öz münasibətini bildirir.

Konstitusiyamızda göstərildiyi kimi respublikanın vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Bu imkanın özü müəyyən sayda vətəndaşların dövlətin idarə edilməsində iştirakını təsbit edir, ona görə ki, bu şəxslər layiq bilinərək məhz vətəndaşların içərisindən seçilir, yaxud müəyyən dövlət vəzifələrinə təyin edilirlər.

Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan dövləti insan və vətəndaş hüquq və azadlıqlarının təminatında bərabərlik funksiyasını konstitusion qanunlar əsasında həyata keçirir.

Qadın hüquqlarına dair Konvensiyalardan biri də «Nikaha daxil olmağa razılıq verilməsi, minimal nikah yaşı və nikahın qeydiyyatı haqqında Konvensiya»dır. Bu Konvensiya 7 noyabr 1962-ci ildə qəbul edilib. Konvensiyaya görə konvensiyada iştirak edən dövlətlər minimal nikah yaşını müəyyən edən qanunvericilik aktları qəbul edirlər. Səlahiyyətli hakimiyyət orqanlarının nikaha daxil olan tərəflərin mənafeyi baxımından

ciddi səbəblərə görə qaydadan istisnaya icazə verildiyi hallardan başqa qoyulmuş yaş həddinə çatmayan şəxslə bağlanmasına yol verilmir.

Bütün nikahlar səlahiyyətli hakimiyyət orqanı tərəfindən müvafiq rəsmi qeydiyyatdan keçirilir.

Konvensiyanın ümumi prinsiplərindən irəli gələn müddəalara uyğun respublikamızda qəbul edilən normativ-hüquqi aktlar, həyata keçirilən əməli işlər artıq bir daha sübut edir ki, bu sahədə real addımlar atılır.

Qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımlı səviyyədə təmsil olunmasının əməli surətdə təmin edilməsi məqsədilə 6 mart 2000-ci il tarixdə «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalanmışdır.

Azərbaycan Respublikasında möhkəm və sağlam ailənin yaradılması üçün real şəraitin təmin edilməsinin təməli iqtisadi həyat şəraitidir. Respublikamızda ümumi həyat şəraitinin, mədəniyyətin, səhiyyənin obyektiv göstəricisi əhalinin xalis artımıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində deyilir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Xoşbəxt ailə qurmaq hər insanın ümdə arzularındandır. Çünki xoşbəxt ailə səadət deməkdir.

BMT-nin Baş Məclisi tərəfindən 10 dekabr 1948-ci ildə qəbul edilmiş «İnsan hüquqlarının Ümumi Bəyannaməsi»nin 16-cı maddəsinin 1-ci bəndində deyilir: «Yetkinlik yaşına çatan kişilər və qadınlar irqi, milli və ya dini əlamətlərinə görə heç bir məhdudiyyət olmadan nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikaha daxil olmaq barədə, nikah zamanı və nikah pozulduqda hüquqlardan bərabər istifadə edirlər».

Nikah yalnız ona daxil olan tərəflərin hər ikisinin azad və tam könüllü razılığı ilə bağlana bilər.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 2-ci maddəsinin 2.2.-ci bəndində deyilir ki, Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahın könüllüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

Ailə qanunvericiliyinə görə nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı və onların nikah yaşına çatmaları zəruridir.

Qarşılıqlı razılığın mahiyyəti ondan ibarətdir ki, nikah başqasının məcburiyyətindən tamamilə asılı olmayaraq yalnız evlənmək arzusunda olanların iradəsi ilə bağlanır.

«Qarşılıqlı razılıq» anlayışı o deməkdir ki, evlənmək arzusunda olanlar nikahın bağlanması üçün məcburiyyət olmadan, şüurlu və könüllü surətdə nikahın qeydə alınmasının mənasını və nəticələrini başa düşərəkdən öz iradələrini ifadə edirlər.

Nikah yaşı, göstərmək lazımdır ki, tələb olunan minimum yaş qanunla müəyyən edilmişdir ki, nikah qeyd edilən zaman ona əməl edilsin. Nikah bağlayan şəxslər cismani, psixoloji və mənəvi cəhətdən yetkin olsunlar. Respublikamızda nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün isə 17 yaş müəyyən edilmişdir.

Belə bir sual meydana çıxır: qanunla müəyyən edilmiş nikah yaşının aşağı salınmasına yol verilə bilər?

Bəli yol verilə bilər.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsinin 10.2-ci bəndində deyilir: «Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər».

Nikah yaşının azaldılması üçün əsas həddi-buluğa çatmamış qızın hamilə olması və ya uşaq doğması, oğlanın hərbi qulluğa çağırılması, yaxud digər ciddi səbəblər ola bilər.

Qadını ərə getməyə məcbur etmək və ya onun bu arzusuna mane olmaq cinayət hesab edilir.

Uşaq hüquqları da həmişə xüsusi diqqət mərkəzində olmuşdur. Bəşər aləmində cəmiyyətin layiqli üzvü olan uşaqlara qayğı, onların tərbiyəsi, gələcək inkişafı hər bir dövlətdə ən ümdə vəziyyətlərdən biri olmalıdır.

«Uşaq hüquqları haqqında BMT Konvensiyası» 20 noyabr 1989-cu ildə qəbul olunub. Konvensiyanın müddəalarına uyğun olaraq 1998-ci il may ayında Azərbaycanda «Uşaq hüquqları haqqında qanun» qəbul olunmuşdur. 1998-ci ildə Azərbaycanda iyun ayının 1-i uşaqları müdafiə günün elan olunmuşdur.

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq hüquqları Bəyannaməsinə, Uşaq hüquqlarına dair Konvensiya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Qanunun 11-ci maddəsi uşaqların düzgün tərbiyə olunması baxımından mühüm əhəmiyyətə malikdir. Burada deylir ki, hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ var. Uşağın tərbiyəsi ailədə, məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə müəssisələrində aparılır.

Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir.

Həqiqətən qanunun bu maddəsi uşaqların düzgün və hərtərəfli inkişaf etdirilməsi baxımından təqdirəlayiqdir. Hələ vaxtilə böyük rus pedaqoqu Makarenko demişdir ki, "düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır. Pis tərbiyə bizim gələcək dərdimizdir və gələcək göz yaşlarımızdır…"

Heç şübhəsiz ki, hər bir valideyn bu məsuliyyət hissini ilk gündən dərk etməlidir. Bu gün biz müasir cəmiyyətimizdə sağlam uşaq nəslinin yetişdirilməsinə nail olmalıyıq.

Qanunun II fəsli «Uşaq və ailə»yə həsr edilib. Bu fəsildə uşağın ailədə yaşamaq hüququ, valideynlərin hüquq və vəzifələri, uşağın mənzil hüququ konkret maddələrdə öz əksini tapıb.

Qanunun 17-ci maddəsi uşağın ailədə yaşamaq hüququnu özündə əhatə edir. Burada deyilir ki, uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır. Həqiqətən bunun uşağın mənafeyi baxımından mühüm əhəmiyyəti var. Belə ki, uşağa qayğı həmişə lazımdır, onun tərbiyəsi daim diqqət mərkəzində olmalıdır. Lakin əgər valideyn öz valideynlik funksiyasını düzgün yerinə yetirmirsə və bu uşağın ümumi mənafeyinə tamamilə ziddirsə o halda uşaq valideyndən alınıb xüsusi tərbiyə müəssisəsinə verilməlidir.

Qanunun 39-cu maddəsi də xüsusi maraq doğurur. Bu maddə «Qaçqın və məcburi köçkün uşaqların müdafiəsi»nə həsr edilib. Maddədə deyilir ki, qaçqın və ya məcburi köçkün olan uşaqların müvafiq statusu almaq hüququ vardır. Dövlət onları lazımi müdafiə və humanitar yardımla təmin etmək üçün təcili müvafiq tədbirlər görür, belə uşaqların valideynlərinin axtarılmasını təşkil edir. Bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Qeyri-dövlət təşkilatlarının fəaliyyətinə zəruri köməklik göstərir.

Qanunun hər bir maddəsi uşaq hüquqlarının müdafiəsi baxımından çox mühüm əhəmiyyətə malikdir.

Bu gün həqiqət naminə demək lazımdır ki, sivil, demokratik, hüquqi dövlətin təməli qoyulur. Bu gün Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, onlara qayğı daim diqqət mərkəzindədir. Bu həqiqətən də əsl ali məqsəd olmalıdır.

Uşaqlara qayğı, diqqət cəmiyyətin qarşısında duran ümdə vəzifələrdən biridir. Bu gün uşaqların mənafelərinin müdafiəsi, onların hüquqlarının qorunması bəşər cəmiyyətinin məqsədinə çevrilməlidir. Əgər sivil vətəndaş cəmiyyəti qurmağa çalışırıqsa onun təməlini bu gündən düzgün qurmağa başlamalıyıq. Bəşər cəmiyyəti gələcəyimiz olan uşaqlar qarşısında bu məsuliyyətini dərk edərək 1989-cu il 20 noyabrda «Uşaq hüquqları haqqında BMT Konvensiyası»nı qəbul etdi. Konvensiyada uşaq mənafelərinin üstünlüyü, uşaqların azadlıq və şəxsi toxunulmazlıq hüququ, həyat və sağlamlığının mühafizəsi hüququ və digər mühüm hüquqları ilk dəfə olaraq təsbit olundu.

Uşaq hüquqları da insan hüquqları sırasına daxil edildi və onlara bəşər cəmiyyətinin vacib bir üzvü kimi insanların diqqəti cəlb edildi. Bundan sonra isə uşaqların hərtərəfli müdafiəsi üçün dövlət səviyyəsində dövlət siyasəti aparılmaqla, uşaqlarla bağlı iri həcmli proqramlar hazırlandı və ildən-ilə genişləndirildi.

Son dövrlərdə respublikamızda da uşaqların hüquqlarının, onların sosial təminatı üçün əsaslandırılmış dövlət siyasəti aparılır, layihələr işlənib hazırlanır. Uşaqların hüquqlarını tənzimləyən bütün qanunlar Azərbaycan respublikasının əsas qanunu olan Konstitusiyaya əsaslanır.

Uşaq hüquq münasibətlərini tənzimləyən ən mühüm qanun isə «Uşaq hüquqları haqqında» Azərbaycan respublikasının 19 may 1998-ci il tarixli Qanunudur. Qanunda uşaq və ailə, uşaq və cəmiyyət, əlverişsiz şəraitə düşmüş uşaqların hüquqlarının müdafiəsi üzrə münasibətləri tənzimləyən müddəalar ayrı-ayrı bölmələrdə birləşdirilib. Uşaqların hüquq bərabərliyinin, uşağın yaşamaq və inkişaf etmək, həyat və sağlamlığının mühafizəsi

hüququ, tərbiyə almaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, zəruri maddi təminat hüququ və digər mühüm hüquqlarının qanunda təsbit olunması və onların təminatının dövlətin öz öhdəsinə götürməsi ümumbəşəri dəyərlər baxımından çox mühüm əhəmiyyət kəsb edir. Lakin uşağın sağlam inkişafı, onun tərbiyəsi, müstəqil həyata hazırlanmasında ən böyük məsuliyyət və eyni zamanda səlahiyyət ailədə uşağın valideynlərinə məxsusdur. Qanunun 19-cu maddəsində göstərilir ki, valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər. Uşağın mənafeyi, onun maraqları bütün hüquq münasibətlərində ön planda durur və uşaqların hüquqlarının qorunmasına, ona əməl edilməsinə birbaşa dövlət nəzarət edir.

Əlverişsiz şəraitə düşmüş uşaqların – əlil, əqli və ya bir-iki çatışmazlıqları olan, qaçqın və ya məcburi köçkün, valideyn himayəsindən məhrum, yetim və digər xüsusi qayğıya ehtiyacı olan uşaqların müdafiəsi ilə bağlı müddəalar qanunda ayrıca bölmədə öz əksini tapıb.

1998-ci il 19 mayda ilk dəfə «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edilmiş və qanun uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Qanuna əsasən dövlət siyasətinin başlıca istiqaməti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, mütərəqqi tələblər əsasında təhsil alması və layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilib. Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Həmin proqramlar uşaqlara iş sahəsində dövlət siyasətinin Azərbaycan Respublikasının mövcud inkişaf mərhələsinə uyğun şəkildə həyata keçirilməsi, görülən işlərin səmərəliliyinin təmin edilməsi, onların mənəvi, əxlaqi və fiziki kamilliyə çatması, layiqli vətəndaş kimi yetişməsinə əlverişli şəraitin yaradılması məqsədi ilə hazırlanır. Belə proqramlardan Nazirlər Kabinetinin 1995-ci il 6 mart tarixli 49 nömrəli qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizə üzrə hökumət proqramı», Nazirlər Kabinetinin 2000-ci il 22 iyun tarixli 125 nömrəli sərəncamı ilə təsdiq edilmiş «Uşaqların təlim tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramı»nı və s. qeyd etmək olar. Bundan əlavə «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» 1999-cu il 22 iyun tarixli Qanunda valideyn himayəsindən kənarda qalan uşaqların hüquqlarının müdafiəsi ilə bağlı münasibətlər, eləcə də sosial təminat məsələləri daha geniş və dəqiq formada tənzimlənmişdir.

«Uşaqların təlim tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» 22 iyun 2000-ci il Dövlət Proqramı da çox geniş və əhəmiyyətli layihədir. Qeyd olunan proqramın əsas istiqamətlərinə uşaqların iqtisadi, sosial, mənəvi hüquqlarının təmin olunması, əlverişsiz şəraitdə yaşayan uşaqlar, sosial müdafiəyə ehtiyacı olan və dövlət himayəsində olan uşaqlar, uşaqların istismarının və onlara zorakılığın qarşısının alınması, normal və ahəngdar inkişafı, yetkinlik yaşına çatmamış uşaqların hüquqlarının təmin edilməsi, Uşaq Hüquqları Konvensiyasının və «Uşaq Hüquqları Haqqında» Azərbaycan Respublikası Qanunun öyrənilməsi və təbliği ilə bağlı işlər aiddir. Ötən dövrdə proqram çərçivəsində xeyli əməli tədbirlər həyata keçirilmişdir. Bunlardan biri ölkə həyatında baxımsız və küçə uşaqları probleminin ciddi sosial bəla kimi meydana çıxması və Ermənistan dövlətinin Respublikamıza etdiyi təcavüz nəticəsində daha kəskin xarakter almasını nəzərə alaraq 2002-ci il 29 aprel tarixində Nazirlər Kabineti yanında aidiyyəti komissiyada «Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli ilə bağlı Tədbirlər Planı»nın təsdiq edilməsidir. Proqramda uşaqların iqtisadi-sosial hüquqlarının müdafiəsi, uşaqların təhsili, səhiyyə problemləri, mədəniyyət və idman məsələləri, uşaqların maraqları naminə ictimai və beynəlxalq əməkdaşlıq kimi əsas istiqamətlər üzrə xüsusi tədbirlərin görülməsi nəzərdə tutulur.

Dövlət Proqramının mühüm vəzifələrindən olan ana və uşaq sağlamlığının qorunması və möhkəmləndirilməsi, uşaqların qida məhsulları ilə təminatının yaxşılaşdırılması istiqamətində də məqsədyönlü işlər aparmış və 2003-cü ildə «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda südəmər körpələrin, erkən yaşlı uşaqların ekoloji cəhətdən təbii sağlam qida məhsulları ilə təmin olunması, onların sağlam böyüməsi baxımından vacib müddəalar öz əksini tapmışdır.

Cəmiyyətimizin uşaqlarla bağlı qarşısında duran problemlərdən biri uşaqların istismarının və onlara qarşı zorakılığın qarşısının alınmasıdır.

Bu yöndə də son illər mühüm addımlar atılmış, zəruri qərarlar qəbul edilmişdir. «Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair» Konvensiyaya qoşulmaq barəsində 13 yanvar 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu göstərilən problemin daha səmərəli və qanuni əsaslarla həllində ciddi əhəmiyyət daşıyır.

Göründüyü kimi uşaqların hüquqlarının qorunması, onların dövlət qayğısı ilə əhatə olunması, uşaqların gələcəkdə həm fiziki, həm mənəvi cəhətdən sağlam, istedadlı, vətəninə sadiq layiqli vətəndaşlara çevrilməsi dövlətimizin və hökumətimizin əsas məqsədidir və bu hər bir vətəndaşın daim diqqət mərkəzində olmalıdır.

**Ailə nikah münasibətlərinin hüquqi cəhətdən tənzim edilməsi**

Ailə cəmiyyətin xüsusi özəyi və əsasdır. Dövlətin inkişafında onu formalaşdıran insanlar, insanların yetişməsində isə ailə mühüm rol oynayır. Ailə münasibətlərinin təmin edilməsi əsasən adət-ənənələr çərçivəsində mənəvi normalarla birlikdə hüquqi aktlarla da qərarlaşır. Ailədə qadın ana kimi əsas aparıcı funksiya daşıyıcısıdır. Əsrlərlə ailəyə kişi maddi, qadın mənəvi istiqamətdə dayaq durub. Lakin tədricən qadın azadlığı, qadın hüquqlarının bərabərləşdirilməsi ailədə də kişi-qadın hüquqlarının qanuniləşdirib. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının iki maddəsi ailə hüququ münasibətlərinə həsr olunub. Belə ki, 17-ci maddənin birinci hissəsində cəmiyyətin əsas özəyi olan ailənin dövlət tərəfindən müdafiəsi (hətta «xüsusi» sözü) qeyd olunub. Göründüyü kimi ailə eləcə də, əsas olaraq ailə başçılarının biri sayılan qadınların hüquqları konstitusion əsasla təsbit olunub. Kişilər nikaha 18, qadınlar isə 17 yaşında daxil ola bilər. Müstəsna halda bu, tərəflərin razılığı ilə bir ilə qədər azaldıla bilər. Ailə məcəlləsinin 3-cü maddəsi ilə kişi ilə qadının şəxsi əmlak hüquqlarına malik olması müəyyənləşdirilib. Beynəlxalq hüquq formalarına müvafiq olaraq Azərbaycan qanunvericiliyində ailədə tam bərabərlik təmin edilməlidir. Ənənəvi olaraq soyad, yaşayış yeri və s. irsi əsaslarla həll edilir.

Azərbaycan Respublikasının ailə məcəlləsi 7 bölmə, 20 fəsil, 156 maddədən ibarətdir. 3-cü bölmə, 6-cı fəsil, 29 və 30-cu maddələr ər-arvadın hüquq və vəzifələrinə həsr olunmuşdur. 29-cu maddənin birinci bəndində göstərilir: «Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində şəxsi və əmlak hüquqlarına malikdirlər». Analıq, atalıq, uşaqların tərbiyəsi, təhsili, eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsipinə uyğun olaraq birgə həll edilir. Nikah zamanı ər-arvad tərəfindən qazanılmış, əldə edilmiş əmlak onların ümumi şəxsi mülkiyyəti hesab olunur.

Ailə-nikah hüquqları Ailə məcəlləsi ilə tənzimlənir. Bu qanuna görə nikah könüllü razılıq əsasında bağlanır, ailə isə cəmiyyətin əsas özəyi hesab edilərək dövlət tərəfindən himayə olunur.

Ailə qanunvericiliyi ailədə bərabərliyi aşağıdakı bir sıra digər hallarda təmin edir:

a) nikaha daxil olma;

b) həyat yoldaşını seçmə və nikaha yalnız özünün şəxsi və tam razılığı ilə daxil olma;

c) uşaqlarla əlaqəli məsələlərdə bir valideyn kimi qadının və kişinin eyni hüquq və vəzifələrə malik olması (bütün hallarda üstünlük uşaqların marağına verilir);

ç) ailə planlaşdırılmasında uşaqların sayı, onların doğum tarixləri və digər vasitələrdən istifadə etmək imkanlarına malik olma;

d) uşaqlara qəyyumluq, hamilik etmə, vəkillik etmə, övladlığa götürmə və ya qanunçuluqda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmə;

e) o cümlədən ər və arvad tərəfindən soyadın, şəxsi peşə və məşğuliyyətin seçilməsində;

ə) həyat yoldaşının əmlaka sahiblik, ondan istifadə edilməsi və onun idarə edilməsi.

Nikah və ailə ilə əlaqədar qadın və kişilərin hüquqları eyni qaydada və eyni səviyyədə qorunur. Kişilər nikaha 18 yaşında, qadınlar isə 17 yaşında daxil ola bilərlər. Müstəsna hallarda tərəflərin qarşılıqlı xahişi və müvafiq icazə olarsa, bu müddət hər bir tərəf üçün 1 ilə qədər azaldıla bilər. Ailə Məcəlləsi ilə ailə münasibətlərində kişi və qadının eyni və bərabər şəxsi və əmlak hüquqlarına malik olmaları müəyyən edilmişdir. Öz hüquq və şəxsi maraqlarının müdafiəsi üçün məhkəməyə şikayət və ya iddia ilə müraciət məsələlərində də kişi və qadınlar eyni hüquqa malikdirlər.

Nikah orqanlarına bir ay qabaqcadan ərizə vermiş şəxslərin iştirakı ilə bağlanır.

Hamiləlik, uşağın doğulması və digər üzrlü səbəblər olduqda nikah ərizə verən gün bağlanır. VVAQ orqanları tərəfindən nikahın bağlanma müddəti bir ay uzadıla bilər.

Ər və arvad arasında nikah münasibətləri nikah qeydə alınan gündən yaranır.

Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin rayon İcra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının bir ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Nikahın bağlanması üçün nikaha daxil olan şəxslər yazılı razılıq verməli və nikah yaşına çatmalıdırlar.

Aşağıdakı şəxslər arasında nikah bağlana bilməz:

- Yaxın qohumlar. Yəni valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar;
- Övladlığa götürən və görülənlər;
- İkisindən biri və hər ikisi başqası ilə nikahda olan şəxslər;
- İkisindən biri və ya hər ikisi ruhi xəstə və ya kəmağıllı olan şəxslər. Ruhi xəstə və kəmağıllılıq məhkəmə tərəfindən tanınmalıdır.

Nikaha nə xitam verilir?

- Ər və ya arvad öldükdə;
- Ər və ya arvad məhkəmə qaydasında olmuş hesab edildikdə;
- Ər və ya arvadın, yaxud hər ikisinin ərizəsi əsasında.

Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ərin təşəbbüsü ilə nikah pozula bilməz.

Nikah VVAQ orqanları və ya məhkəmə qaydasında pozulur.

Aşağıdakı hallarda nikah VVAQ orqanlarında pozulur.

- Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olmadıqda, hər ikisinin razılığı olduqda;
- Ər (arvad) məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə;
- Ər (arvad) məhkəmə qaydasında ruhi xəstə və ya kəmağıllı hesab edildikdə;
- Ər (arvad) cinayət əməli törətməyə görə ən azı 3 (üç) il müddətinə azadlıqdan məhrum olunduqda.

VVAQ orqanları nikahın pozulması barəsində şəhadətnaməni ər (arvad) ərizə verdiyi vaxtdan bir ay müddətinə verməlidirlər.

Aşağıdakı hallarda nikah məhkəmə qaydasında pozulur:

- Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda;
- Ər-arvadın hər hansı biri nikahın pozulmasına razı olmadıqda;
- Ər-arvadın razılığı olduqda, lakin onlardan biri VVAQ orqanında nikahın pozulmasından boyun qaçırdıqda:
- Ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə;
- Ər və ya arvadın nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 aya kimi vaxt verir. Bu müddətdə barışıq olmadıqda və ya tərəflərdən hər hansı biri təkid etdikdə nikah pozulur.

Nikah məhkəmə qaydasında pozularkən ər-arvad məhkəməyə yetkinlik yaşına çatmayan uşaqları kiminlə qaldığını, uşaqların və eləcə də əmək qabiliyyəti olmayan arvadın (ərin) saxlanması üçün vəsaitin ödənilməsi qaydasını və ər-arvadın ümumi birgə mülkiyyətinin bölünməsini müəyyən edən saziş təqdim edə bilərlər.

Belə bir saziş olmadıqda və ya belə bir saziş uşaqların və tərəflərin marağına toxunduqda məhkəmə aşağıdakı hərəkətləri etməlidir:

- boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərinin hansının yanında qalmasını;
- uşaqlar üçün alimentin hansı valideyndən və hansı miqdarda tutulmalı olduğunu müəyyən etməli;
- ər-arvadın (onlardan birinin) tələbi ilə onların birgə mülkiyyətində olan əmlakın bölgüsünü aparmalı;
- ərdən (arvaddan) saxlanması üçün vəsait almaq hüququna malik olan arvadın (ərin) tələbi ilə ərdən (arvaddan) tutulmalı olan vəsaitin miqdarını müəyyən etməlidir.

Ər və arvadın arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki, soyadını saxlaya və ya öz ərinin (arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər. Nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamağa və nikahdan əvvəlki soyadını bərpa edə bilər.

Əcnəbi vətəndaşlar Azərbaycan Respublikası vətəndaşları ilə nikah bağladıqda, onların nikahı Bakı şəhərində «Səadət» sarayında həyata keçirilir və bu zaman əcnəbi vətəndaşın nikahda olmaması barədə öz ölkəsindən aldığı rəsmi sənədlər təqdim edildikdə həyata keçirilir.

Uşaq valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Valideynlərin nikahının pozulması və onların ayrı yaşaması uşağın hüquqlarına təsir etmir. Valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir.

Uşaq 18 yaşına çatana kimi onun adının dəyişdirilməsinə, eləcə də soyadının digər valideynin soyadına dəyişdirilməsinə valideynlərin birgə xahişinə əsasən və uşağın mənafeyi nəzərə alınaraq rayon icra hakimiyyəti orqanlarının qərarı ilə həyata keçirilə bilər. Valideynlər ayrı yaşadıqları və uşaqla yaşayan valideyn ona öz soyadını vermək istədikdə, VVAQ orqanı bu məsələni digər valideynin rəyini nəzərə almaqla və uşağın maraqlarından asılı olaraq həll edir.

10 yaşına çatmış uşağın adı və soyadı yalnız onun razılığı ilə dəyişdirilə bilər.

Valideynlər arasında aliment verilməsi barədə razılıq olmadıqda məhkəmə tərəfindən uşaqlar üçün onların valideynlərindən hər ay aşağıdakı miqdarda aliment tutulur:

1. Bir uşağa görə – qazancın və valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;
2. İki uşağa görə – qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;
3. Üç və daha çox uşağa görə – qazancın (baş gəlirlərin) yarısı.

Ər-arvad birgə mülkiyyətinin rejimi onların əmlakının qanuni rejimi hesab olunur.

Nikah müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, ər-arvadın əmlakının qanuni rejimi fəaliyyət göstərir.

Ər-arvadın nikah müddətində əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

Ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir.

Ər-arvadın ümumi əmlakı üzərində sərəncam əqdlərini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki, o digərinin razılığı ilə hərəkət edir.

Ər-arvad birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notaritar qaydada təsdiq edilən və qeydiyyata alınan əqdlər bağlamaq üçün digər tərəfin notariat qaydada təsdiq edilmiş razılığı lazımdır.

Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir.

Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditor ödəmənin ər-arvadın ümumi əmlakında olan onlardan birinin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir.

Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydada təsdiq edilir.

Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın payının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir.

Ər-arvadın ümumi əmlakı hesabına yetkinlik yaşına çatmayan ümumi uşaqların adına qoyulmuş əmanətlər həmin uşaqlara məxsusdur və ümumi əmlakın bölünməsi zamanı nəzərə alınmır.

Ər-arvadın arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı onların bu əmlakındakı payları bərabər hesab edilir.

Ümumi əmlak bölünərkən ər-arvadın ümumi borcları onların payına uyğun olaraq müəyyən edilir.

Ər-arvadın birinin öhdəlikləri üzrə ödəmə yalnız onun şəxsi əmlakına və ər-arvadın ümumi əmlakı bölünərkən həmin əmlakdan ona çata biləcək paya yönəldilə bilər.

Aşağıdakı hallarda ərin (arvadın) öhdəlikləri üzrə ödəmə onların ümumi əmlakına yönəldilir.

- ər-arvadın ümumi öhdəlikləri üzrə habelə ər-arvaddan birinin öhdəlikləri üzrə alınmış vəsaitin ailə ehtiyacları üçün istifadə olunduğu məhkəmə tərəfindən müəyyən edildikdə;

- ər-arvadın ümumi əmlakının onlardan birinin cinayət yolu ilə qazandığı vəsait hesabına əldə edildikdə və ya artırıldığı məhkəmənin hökmü ilə müəyyən olunduqda;

- yetkinlik yaşına çatmayan uşaqların vurduğu zərərə görə.

Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir.

Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

Ər-arvadın nikah müqaviləsində bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirak qaydası ilə bağlı hüquq və vəzifələri, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın münasibətlərinə dair hər hansı başqa halları müəyyən edə bilərlər.

Nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövrünün istənilən vaxtı bağlana bilər.

Nikahın bağlanmasının dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nikahın dövlət qeydiyyatına aldığı gündən qüvvəyə minir.

Nikah müqaviləsi yazılı formada bağlanır və notarit qaydada təsdiq olunur.

Nikah müqaviləsinin bağlanması, dəyişdirilməsi və pozulması barədə ər (arvad) öz kreditorlarına məlumat verməlidir. Bu vəzifəni yerinə yetirmədikdə ər (arvad) nikah müqaviləsinin məzmunundan asılı olmayaraq öz öhdəliklərinə görə məsuliyyət daşıyır.

Nikah müqaviləsinin formasını və tərtib etmə qaydasını bilməyənlər aşağıdakı nikah müqaviləsinin nümunəsi ilə tanış ola bilərlər. Bu nikah müqaviləsi nümunə xarakteri daşıyır və nümunədə göstərilən şərtlər, müqavilənin bəndləri tərəflərin arzusuna görə dəyişdirilə bilər, müqaviləyə digər şərtlər daxil edilə bilər, ayrı-ayrı bəndlər çıxarıla və ya həmin bəndlərə əlavələr edilə bilər. Nikah müqaviləsini bağlayarkən yuxarıda göstərilən hallardan istifadə etmək olar.

Ər- arvadın hüquq və vəzifələri

I. ər- arvadın şəxsi hüquq və vəzifələri

II. ər- arvadın əmlakının qanuni rejimi

III. ər- arvadın mülkiyyətinin müqavilə rejimi

**I**

Azərbaycan Respublikası konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər.

Nikahın qeydə alınması nəticəsində ər-arvad arasında əmələ gələn hüquqi münasibətlər iki qrupa; a) şəxsi, yəni qeyri-əmlak münasibətlərinə və b) əmlak xarakterli münasibətlərə bölünür.

Şəxsi hüquq münasibətlərinin mahiyyəti ondan ibarətdir ki, münasibətlərin iqtisadi məzmunu yoxdur. Onların təbiəti əmtəə-pul dəyərindən azaddır. Ailənin simasını şəxsi hüquq münasibətləri təşkil edir. Şəxsi hüquq münasibətləri əmlak münasibətlərinə nisbətən həlledici rol oynayır. Bu isə təsadüfü deyildir. Çünki şəxsi hüquq münasibətləri ər-arvadın məhəbbətə, dostluğa, qarşılıqlı hörmətə və şəxsi meylə əsaslanaraq bağladıqları nikahın mahiyyətindən irəli gəlir, nikaha daxil olanların məqsədi ümumi əmlak qazanmaq (əldə etmək) yox, əsil ailə qurmaqdır.

Ər-arvadın şəxsi hüquqlarına aiddir: a) nikah bağlanarkən soyad seçmək hüququ b) istədiyi məşğuliyyəti seçmək, sənət və yaşayış yerini seçmək hüququ V) ailə həyatının məsələlərini birlikdə həll etmək hüququ

Analıq, atalıq uşaqların tərbiyəsi və təhsili eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir ər (arvad) özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə azaddır.

Ər-arvad öz arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki soyadını saxlaya və ya öz ərinin ( arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər.

Nikaha daxil olanlardan biri və ya hər ikisi qoşa soyada malik olduqda soyadların birləşdirilməsinə yol verilmir.

Nikah pozulduqda ər ( arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna malikdir.

## II

Ailə qanunvericiliyinə görə ər-arvadın birgə mülkiyyətinin rejimi onların əmlakının qanuni rejimi hesab olunur. Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

Ər-arvadın ümumi birgə mülkiyyətinə aşağıdakılar daxildir.

1) Onların hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcədə xüsusi təyinatı olmayan digər pul ödəmələri (şikəstlik, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s)

2) ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələrinə və s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından yaxud əmanətin kimin adına və ya kim tərəfindən əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak

3) Nikah dövründə ev təsərrüfatı ilə uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) da ümumi əmlak üzərində hüquqa malikdir.

Ər-arvadın ümumi əmlak üzərində sərəncam əqdini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki, o digərinin razılığı ilə hərəkət edir.

Ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir.

Ər-arvaddan birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya ) qeydiyyata alınan əqdlər bağlaması üçün digər tərəfin notariat qaydada təsdiq olunmuş razılığı lazımdır. Ərin (arvadın) bu barədə notariat qaydada təsdiq olunmuş razılığı olmadıqda, o əqdin həyata keçirildiyindən xəbər tutduğu və ya xəbər tutmaq imkanı olduğu gündən 1 (bir) il ərzində həmin əqdin etibarsız sayılmasını tələb edə bilər.

Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır).

Zinət əşyaları istisna olmaqla fərdi istifadə şeyləri (geyim, ayaqqabı və s.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də ər-arvaddan kimin istifadəsində olubsa, ona məxsusdur.

Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydasında təsdiq edilə bilər.

Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir. Məhkəmə ər-arvadın ümumi əmlakını bölərkən onların tələbi ilə hər birinə çatacaq əmlakı müəyyən edir, ər-arvaddan birinə, dəyəri ona çatacaq payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verilə bilər.

Məhkəmə ər-arvadın ailə münasibətlərinə xitam verdiyi və ayrı yaşadığı dövrdə hər birinin qazandığı əmlakı onların hər birinin mülkiyyəti hesab edilə bilər.

## III

Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir.

Nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər.

Nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər.

Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

Ər-arvad nikah müqaviləsinə bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirakı qaydası ilə bağlı hüquq və vəzifələrini nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər.

Nikah müqaviləsində ər-arvadın hüquq və fəaliyyət qabiliyyətini, öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququnu, uşaqlara münasibətdə hüquq və vəzifələrini, eləcə də ər-arvad arasındakı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən, ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanması üçün vəsait almaq hüququn məhdudlaşdıran, ər-arvaddan birinin əlverişsiz vəziyyətə salan və ailə qanunvericiliyinin əsaslarına zidd olan müddəalar nəzərdə tutula bilər.

Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur.

**NİKAH MÜQAVİLƏSİ**

__________ *şəhəri* *«____» _______ 200 il*

Biz aşağıda imza edənlər, nikaha daxil olmaq niyyətində olan (nikahda olanlar üçün kim tərəfindən və nə vaxt qeydiyyata alınıb, nikah şəhadətnaməsinin qeydiyyat nömrəsi) bundan sonra bu müqavilədə, «ər» adlandırılan _______ ünvanda yaşayan vətəndaş _____ pasport seriya ____ (şəxsiyyət vərəqəsi) nömrə ____ tərəfindən verilmiş, bir tərəfdən və bu müqavilədə «arvad» adlandırılan ______ ünvanda yaşayan vətəndaş pasport seriya ____ (şəxsiyyət vərəqəsi) nömrə ____ tərəfindən verilmiş digər tərəfindən aşağıdakı şərtlər ilə bu müqaviləni bağladıq:

**1. Ümumi müddəalar**

1.1. Qanunla ər və arvad hər birinin şəxsi mülkiyyəti sayılan və bu müqavilə ilə nəzərdə tutulan digər hallar istisna olmaqla onların nikah dövründə əldə etdiyi əmlak münasibətdə, onların nikah dövründə ümumi birgə əmlakı sayılır.

1.2. Nikah ər və arvadın ikitərəfli razılığı ilə pozularsa, nikah dövründə əldə olunmuş birgə əmlaka, əgər bu müqavilədə digər hallar nəzərdə tutulmayıbsa, əmlakın nikah dövründə müəyyən edilmiş qanuni rejimi saxlanır (ümumi birgə əmlak və ya ər-arvadın birini əmlakı).

1.3. Nikah ərin təşəbbüsü və ya onun nalayiq hərəkətləri (arvada xəyanət, sərxoşluq, xuliqanlıq hərəkətləri və s.) nəticəsində pozulduqda nikah dövründə əldə olunmuş ər və arvadın ümumi birgə əmlakına aid olan əmlak nikah pozulduqda ondan ər və arvadın bölünməli əmlakı hesab olunur. Bu halda qeyd olunan əmlakın __ hissəsi arvadın, yəni ____ (S.A.A), ______ hissəsi isə ərə, yəni _____ (S.A.A) məxsus olur.

1.4. Nikah arvadın təşəbbüsü və ya onun nalayiq hərəkətləri (ərə xəyanət, sərxoşluq, xuliqanlıq hərəkətləri və s.) nəticəsində pozulduqda nikah dövründə əldə olunmuş, ər və arvadın ümumi birgə əmlakına aid olan əmlak nikah pozulduğu andan onların bölünməli əmlakı hesab olunur. Bu halda qeyd olunan əmlakın ____ hissəsi ərə, yəni ____ (S.A.A), ____ hissəsi isə arvada, yəni ____ (S.A.A) məxsus olur.

**2. Əmlakın ayrı-ayrı növlərinin qanuni rejiminin xüsusiyyətləri**

1.5. Nikah dövründə ər və arvadın tərəfindən banka qoyulmuş əmanətlər, o cümlədən onların faizləri həm nikah dövründə, həm də nikah pozulduğu təqdirdə ər-arvadın hansının adına rəsmiləşdirilməsindən asılı olmayaraq onların birgə mülkiyyəti hesab olunur.

1.6. Nikah dövründə əldə olunmuş aksiya və digər qiymətli kağızlar (alana verilmiş qiymətli kağızlar istisna olunmaqla), həmçinin onların dividentlər həm nikah dövründə, həm də nikah pozulduğu təqdirdə ər-arvadın hansının adına rəsmiləşdirilməsindən asılı olmayaraq onların birgə mülkiyyəti hesab olunur.

1.7. Nikah dövründə hər hansı kommersiya təşkilatının əmlakı və ya gəlirlərindən əldə olunmuş pay, həm nikah dövründə, həm də nikah pozulduğu təqdirdə ər-arvadın hansının adına rəsmiləşdirilməsindən asılı olmayaraq onların birgə mülkiyyəti hesab edilir.

1.8. Nikah dövründə ər və arvadın tərəfindən əldə olunmuş zərgərlik məmulatları həm nikah dövründə, həm də nikah pozulduğu təqdirdə həmin məmulatları istifadə edən tərəfin mülkiyyəti hesab olunur.

1.9. Toy hədiyyələri, həmçinin nikah dövründə ər və arvadın birlikdə və ya ayrılıqda verilmiş və onların hər ikisinin istifadə etməsi üçün nəzərdə tutulmuş (daşınmaz əmlak istisna olunmaqla) hədiyyələr, (avtomobil, mebel, məişət texnikası və s.) nikah dövründə ümumi birgə əmlak hesab olunur, nikah pozulduğu təqdirdə isə

ərin və arvadın hansının qohumu (dostları, tanışları, əməkdaşları və.s) tərəfindən verilmişdirsə, hədiyyə həmin tərəfə məxsus olur. Bu halda hədiyyələrin xüsusi əlamətləri göstərilməklə siyahısı tərtib oluna bilər.

Ər və arvadın nikahda olduqları dövrdə onların ümumi dostları (tanışları, əməkdaşları və s.) tərəfindən verilmiş və hər ikisinin istifadə etməsi üçün nəzərdə tutulmuş hədiyyələr, həm nikah dövründə, həm də nikah pozulduğu təqdirdə ər və arvadın ümumi birgə əmlakı hesab olunur.

1.10. Nikah dövründə ər və arvad tərəfindən əldə olunmuş qablar, mətbəx ləvazimatları, mətbəx məişət texnikası nikah dövründə ər və arvadın ümumi birgə əmlakı, nikah pozulduğu təqdirdə arvadın əmlakı hesab olunur. Nikah dövründə ər və arvad tərəfindən əldə olunmuş avtomobil, nikah dövründə ər və arvadın ümumi birgə əmlakı, nikah pozulduğu təqdirdə isə ərin əmlakı hesab olunur.

## 3. Əlavə şərtlər

1.11. Qanuna və ya bu müqavilənin müddəalarına müvafiq olaraq nikah dövründə onlardan birinin şəxsi əmlakı ümumi birgə əmlakın dəyərini artırmışdırsa, həmin əmlakı özü deyil, yalnız artırılmış hissəsi ər-arvadın ümumi mülkiyyəti hesab edilir. Bu halda ər-arvad artırılmış əmlakda payının əvəzini proporsional şəkildə almaq hüququna malikdir.

1.12. Ər və arvadın hər birinin mülkiyyətində eyni tipli rəsmiləşdirilmiş və onların hər birinə ayrılıqda məxsus olan (iki yaşayış evi, iki mülk, iki maşın və s.) əmlak olduqda onlardan biri digərinin yazılı razılığı ilə ona məxsus rəsmiləşdirilmiş əmlakın özgəninkiləşdirməsini həyata keçirirsə, bu cür özgəninkiləşdirmədən sonra həmin əmlak həm nikah dövründə, həm də nikah pozulduğu təqdirdə onların ümumi birgə əmlakı hesab olunur.

1.13. Arvad ərin xüsusi mülkiyyətində olan ünvandakı evindən (mənzil, otaq, yaşayış sahəsi) istifadə etmək (daimi yaşayış yeri kimi qeydiyyata düşmək və yaşamaq) hüququna malikdir.

1.14. Ər-arvadın xüsusi mülkiyyətində olan ünvandakı (mənzil, otaq və yaşayış sahəsi) istifadə etmək (daimi yaşayış yeri kimi qeydiyyata düşməklə və yaşamaq) hüququna malikdir.

1.15. Nikah pozulduğu təqdirdə bu müqavilənin 3.3 və 3.4-cü bəndlərində qeyd edilən evlə (mənzil, otaq və yaşayış sahəsi) əlaqədar ərin və arvadın istifadə hüququ (daimi yaşayış yeri kim qeydiyyat hüququ da daxil olmaqla) ləğv olunur. Bu halda ər və ya arvad nikah pozulduğu andan iki həftə müddətində göstərilən evi tərk etməyi və həmin yaşayış sahəsində daimi qeydiyyatını ləğv etməyi öz öhdəsinə götürür.

1.16. Ər və arvad hər biri öz kreditorlarını nikah müqaviləsinin bağlaması, dəyişdirilməsi və pozulması haqqında xəbərdar etməlidirlər.

## 4. Yekun müddəalar

1.17. Ər və arvad vərəsəliyin müəyyənləşdirilməsi qaydalarına dəyişikliklər və əmlakla bağlı onlar tərəfindən seçilmiş qanuni rejimin hüquqi nəticələri ilə notarius tərəfindən tanış edilmişlər.

1.18. Bu müqavilə:

a) onun notariat qaydada təsdiq olunduğu andan (müqavilə nikahın rəsmiləşdirilməsindən sonra bağlandığı halda)

b) nikahın rəsmiləşdirildiyi andan (müqavilə nikahın rəsmiləşdirilməsinədək bağlandığı halda qüvvəyə minir)

1.19. Bu müqavilənin hazırlanması və təsdiq edilməsi ilə bağlı bütün xərclər ər və arvad tərəfindən bərabər həcmdə ödənilir.

1.20. Bu müqavilə üç nüsxədə tərtib olunur bir nüsxə notariat kontorunda, digər iki nüsxəsi isə nikah bağlayan ər və arvadda saxlanılır.

İmzalar: ər arvad

## ÖVLADLIĞA GÖTÜRMƏ

Övladlığa götürmə ilə bağlı hüquq münasibətləri Azərbaycan Respublikasının «Ailə məcəlləsi» və «Mülki Prosessual məcəllə»nin müddəaları ilə tənzimlənir.

Övladlığa götürmə yalnız uşaqların mənafeyi naminə yol verilir və bu məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmədə övladlığa götürmə barədə işə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki-prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

18 yaşına çatmayan, hər bir uşaq, qanunvericilikdə valideynlərin razılığının tələb olunmadığı hallar istisna olunmaqla, valideynin, qəyyumun, himayədar ailənin, uşaqların yerləşdiyi müəssisələrin rəhbərlərinin və uşaqların özlərinin razılığı ilə övladlığa götürülə bilər və bir uşaq yalnız bir şəxs tərəfindən (ər-arvaddan başqa) övladlığa götürülə bilər. Bununla belə uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, bacı və qardaşların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir, uşaqların ilk növbədə yaxın qohumlara və ya Azərbaycan Respublikası vətəndaşlarının ailələrinə tərbiyəyə verilməsinə üstünlük verilir və əgər uşaqların bu cür yerləşdirilməsi mümkün deyilsə, uşaqlar əcnəbi və vətəndaşlığı olmayan şəxslərə övladlığa verilə bilər. Valideyni olan uşağın övladlığa götürülməsinə valideynin razılığı qaydasında təsdiq olunaraq yazılı formada və ya məhkəmədə övladlığa götürmə zamanı şifahi formada verilə bilər. Övladlığa götürmə barədə məhkəmə qətnamə qəbul edənədək valideynlər bu razılığı geri götürə bilərlər.

Qanunvericilikdə övladlığa götürmə zamanı valideynlərin razılığının tələb olunmadığı hallarda göstərilir, valideynlik hüququndan məhrum edilmiş və ya fəaliyyət qabiliyyəti olmayan, yaxud xəbərsiz itkin düşmüş hesab edilmiş, eləcə də 6 aydan artıq müddətə uşaqla birlikdə yaşamayan, uşağa valideyn diqqəti və qayğısı göstərməyən valideynlərin uşaqlarının övladlığa götürülməsinə razılığı olmadan da övladlığa götürmə icra edilə bilər.

Aşağıdakılar istisna olmaqla, hər iki cinsdən olan yetkinlik yaşına çatmış şəxslər övladlığa götürən ola bilərlər:

- fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən;
- valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər;
- qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılmış şəxslər;
- əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilmiş şəxslər;
- səhhətinə görə valideyn vəzifəsini həyata keçirə bilməyən şəxslər;
- övladlığa götürməyə imkan verməyən xəstəlikləri olduqda (bu xəstəliklərin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən verilir);
- birlikdə yaşasalar da aralarında nikah olmayan şəxslər.

Övladlığa götürmə üçün digər bir şərt ondan ibarətdir ki, övladlığa götürən şəxs nikahda deyilsə, onunla övladlığa götürülən uşağın yaş fərqi 16-dan az olmamalıdır, ögey ata (ögey ana) uşağı övladlığa götürəndə isə belə yaş fərqi tələb olunmur.

Övladlığa götürmənin sirri qanunla mühafizə olunur. Övladlığa götürənlərin razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq aktlarının qeydiyyat kitablarından bu barədə çıxarışlar vermək qadağan edilir və övladlığa götürənin iradəsi ziddinə övladlığa götürmə sirrini yaymış şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər.

Övladlığa götürmənin gizli saxlanması üçün övladlığa götürənin xahişi ilə övladlığa götürülənin soyadı, adı və atasının adı, doğulduğu yer və uşaq 1 yaşına çatanadək 3 aydan çox olmayaraq doğum tarixi dəyişdirilə bilər. Lakin övladlığa götürülən 10 yaşına çatmış uşağın soyadı və adı onun razılığı ilə dəyişdirilə bilər.

Övladlığa götürmənin ləğv edilməsi məhkəmə qaydasında aşağıdakı hallarda həyata keçirilir:

- övladlığa götürən valideynlik vəzifələrini yerinə yetirmədikdə;
- övladlığa götürən valideynlik hüquqlarından sui-istifadə etdikdə;
- övladlığa götürən uşağa qəddar münasibət bəslədikdə;
- övladlığa götürən xroniki alkoqolik və narkoman olduqda.

Məhkəmə uşağın rəyini nəzərə almaqla onun mənafeyi naminə digər əsaslarla da övladlığa götürməni ləğv edə bilər.

## QƏYYUMLUQ VƏ HİMAYƏÇİLİK

Qəyyumluq və himayə valideynlərini itirmiş uşaqlara onların saxlanması, tərbiyə olunması, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə müəyyən olunur. On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlara, eləcə də psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində qəyyumluq təyin edilir.

On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, bundan əlavə spirtli içkilərdən və ya narkotik vasitələrindən sui-istifadə etməsi nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində himayəçilik təyin edilir.

Yetkinlik yaşına çatmayan uşaqların valideynləri olmadıqda, valideynləri valideynlik hüququndan məhrum edildikdə və ya bu hüquqları məhdudlaşdırıldıqda, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, azadlıqdan məhrum etmə yerlərində cəza çəkdikdə, uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və vəzifələrini müdafiə etməkdən imtina etdikdə, qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edildikdə onların üzərində qəyyumluq və himayəçilik müəyyən edilir.

Yalnız yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyəti olan şəxslər, onların əxlaqı və başqa cəhətləri, qəyyumluq vəzifəsini yerinə yetirə bilməsi, onun və ailəsinin uşaqla ünsiyyəti və münasibəti mümkünsə, uşağın öz arzusu nəzərə alınmaqla qəyyum (himayəsi) təyin edilə bilərlər.

Alkoqolik və narkamanlar, qəyyumluq (himayə) vəzifələrini icra etməkdən kənarlaşdırılmış, valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, səhhətinə görə uşağı tərbiyə etmək vəzifəsini həyata keçirə bilməyən şəxslər qəyyum (himayəçi) ola bilməzlər.

Qəyyumu və ya himayəçini qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı qəyyumluq (himayəçilik) qoyulması zərurətinin ona məlum olduğu andan 3 ay ərzində təyin edir. Qəyyum və himayəçi öz razılığı ilə təyin edilir və uşağın qəyyumluq (himayəçilik) vəzifələri təmənnasız yerinə yetirilməlidir. Qəyyumlar (himayəçilər) uşağın tərbiyə edilməsi, onun sağlamlığının, fiziki və psixi, mənəvi və əxlaqi inkişafının, təhsil almasının qayğısına qalmağa, onların hüquq və mənafelərini qorumağa borcludurlar. Qəyyumun (himayəçinin) müvafiq orqanın tövsiyələrini, uşağın rəyini nəzərə almaqla, onun tərbiyə üsullarını sərbəst müəyyənləşdirmək, təhsilin formasını seçmək hüququna malikdir və uşağın ümumi orta təhsil almasını təmin etməlidir. Uşağın valideynləri, yaxın qohumları ilə ünsiyyət uşağın maraqlarına cavab verмədiyi hallardan başqa, qəyyumun (himayəçinin) uşağın onlarla ünsiyyət saxlamasına icazə verməmək hüququ yoxdur.

Tam dövlət himayəsində olmaqla tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində yerləşən uşaqlara qəyyum təyin olunmur və bu vəzifə həmin müəssisələrin rəhbərliyinə həvalə edilir. Qəyyumluq və himayə orqanları uşağın bu müəssisələrdə saxlanmasına, tərbiyə və təhsilinə nəzarət edir.

Qəyyumluq və himayədə olan uşaqlar da müəyyən hüquqlara malikdirlər. Bunlara aiddir:

- qəyyumun (himayəçinin) ailəsində tərbiyə almaq, onlardan qayğı almaq, qəyyum ilə birlikdə yaşamaq;
- onların saxlanması, tərbiyəsi, təhsili, hərtərəfli inkişafı və insan ləyaqətinə hörmət edilməsi şəraiti ilə təmin edilmək;
- onlara düşən pensiya, müavinət, aliment və s. sosial ödənişlər almaq;
- yaşadıqları ev (mənzil) üzərində mülkiyyət hüququnu və ya ondan istifadə etmək hüququnu saxlamaq, ev olmazsa mənzil qanunvericiliyinə uyğun mənzil almaq;
- qəyyumun sui-istifadə hərəkətlərindən mühafizə olunmaq;
- öz qohumları ilə ünsiyyətdə olmaq, öz fikrini bildirmək hüququndan istifadə etmək.

Tərbiyə, müalicə və əhalinin müdafiəsi müəssisələrində qalan uşaqlar da bu hüquqlardan və əlavə olaraq müəssisələrdən qayıtdıqdan sonra əmək qanunvericiliyinə uyğun olaraq işə düzəlmədə güzəştlərdən istifadə edə bilər.

Qəyyumluqda (himayədə) olan uşaqların müstəqil surətdə sərəncam verməyə ixtiyarı çatdığı gəlirlər istisna olmaqla, onun gəlirləri qəyyum tərəfindən yalnız qəyyumluq və himayəçilik orqanlarının icazəsi və uşağın mənafeləri üçün xərclənə bilər.

Qəyyumluqda (himayədə) olan uşaqlar valideynlərinə qaytarıldıqda, övladlığa götürüldükdə, müvafiq müəssisələrdə yerləşdirildikdə qəyyum öz vəzifələrindən azad edilir.

Üzrlü səbəblər olduqda qəyyum (himayəçi) öz xahişi ilə də vəzifələrindən azad edilə bilər. Qəyyumluqda olan uşaq 18 yaşına çatdıqda, habelə nikaha girdiyi və yetkinlik yaşına çatanadək tam fəaliyyət qabiliyyəti əldə etdiyi digər hallarda himayəçiliyə xüsusi qərarsız xitam verilir. Əgər qəyyum və himayəçi öz vəzifələrini gərəyində yerinə yetirməzsə və qəyyumluq hüquqlarından sui-istifadə edərsə o, bu vəzifələrin icrasından kənar edilə və barəsində zəruri tədbirlər görülə bilər.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların tərbiyə olunması üçün onların himayədar ailələrə verilməsi də nəzərdə tutulur. Himayədar ailə uşağı tərbiyə olunmaq üçün vermə müqaviləsi əsasında yaranır. Bu müqavilə qəyyumluq və himayə orqanı ilə himayədar arzusunda olan ər-arvad və ya ayrı-ayrı vətəndaşlar arasında bağlanır. Himayədar ailəyə yalnız yetkinlik yaşına çatmayan uşaq müqavilə ilə nəzərdə tutulan müddətə verilə bilər. Müqavilədə hökmən onun yaşayış, tərbiyə və təhsil şəraiti, himayəçi valideynlərin hüquq və vəzifələri, qəyyumluq və himayə orqanın himayədar ailə qarşısında vəzifələri, bu müqavilənin ləğv olunması əsasları və nəticələri göstərilir, himayədar valideynlərin əməyinə görə haqqın miqdarı və tərbiyə üçün götürdükləri uşaqların sayından asılı olmaqla verilən imtiyazlar qanunvericiliklə müəyyən edilir. Himayədar valideynlər götürdükləri uşaqlara münasibətdə qəyyumun (himayəçinin) hüquq və vəzifələrinə malik olurlar. Himayədar ailəyə verilmiş uşaq ona düşən pensiya, aliment, müavinət və başqa sosial ödənişlər almaq, mənzil sahəsinə mülkiyyətçi olmaq və ondan istifadə etmək, mənzil sahəsi almaq, yaxın qohumları ilə ünsiyyətdə olmaq, özünü müdafiə etmək, öz fikrini bildirmək hüququna malikdir.

Himayədar ailəyə verilən uşaqların normal saxlanmasına, tərbiyə və təhsilinə nəzarət etmək müvafiq qəyyumluq və himayəçilik orqanının borcudur.

Qanunvericilikdə və eləcə də dövlət səviyyəsində uşaqların hüquq və azadlıqları müəyyənləşdirilib müdafiə edilir. Lakin bununla bərabər uşaqların cəmiyyət, valideynlər və dövlət qayğısında müəyyən öhdəlikləri də nəzərdə tutulur ki, bu da uşaqların tərbiyəvi-əxlaqi, mənəvi qaydalar çərçivəsində məsuliyyətli bir vətəndaş kimi böyüməsində vacib şərtdir. «Uşaq hüquqları haqqında» qanunun 16-cı maddəsində göstərilir ki, cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.

## İŞƏ QƏBULUN VƏ İŞDƏN ÇIXMANIN HÜQUQİ CƏHƏTDƏN TƏNZİM EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Bildiyimiz kimi respublikamızda əsaslı iqtisadi və hüquqi islahatlar həyata keçirilməkdədir. Bu sahədə xeyli qanunlar qəbul edilmişdir. Qəbul edilən qanunların əsas mahiyyəti bilavasitə Azərbaycan vətəndaşlarının

mənafeyinə, onların hüquq və azadlıqlarının müdafiəsinə yönəldilmişdir. Əmək məcəlləsi 1 iyul 1999-cu ildən qüvvədədir.

Hər bir əmək qabiliyyətli Azərbaycan vətəndaşı faydalı əməklə məşğul olmalıdır. Belə ki, bu onun bilavasitə konstitusion hüququdur. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində göstərilir ki, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

Lakin cəmiyyətin ümumi mənafeyini nəzərə almaqla iş yerini və növünü könüllü surətdə seçməkdə vətəndaş müstəqildir.

İşə qəbul məsələsi «Nümunəvi daxili əmək intizamı qaydaları» Azərbaycan respublikasının Əmək Qanunvericiliyi ilə nizama salınır. Burada göstərilir ki, işə qəbul müəssisəsinin, idarə və təşkilatın rəhbərliyinin əmri, yaxud sərəncamı ilə rəsmiləşdirilir. Əmr işçiyə imza etdirilməklə elan olunur. Bu tələbə işəgötürən tərəfindən əməl olunması müqavilənin bəzi şərtlərinin pozulması kimi qiymətləndirilir və işçiyə əsas verir ki, o müqavilənin şərtlərinin pozulmasından, işəgötürənin təsirli davranışından şikayət etsin.

Azərbaycanın yeni milli əmək məcəlləsinin III bölməsi əmək müqaviləsinə həsr edilmişdir. Əmək müqaviləsində ilk dəfə olaraq göstərilir ki, on beş yaşına çatmış hər bir şəxs əmək müqaviləsinin tərəfi ola bilər.

Yeni Əmək Məcəlləsinin 43-cü maddəsinin məzmunundan aydın olur ki, əmək müqaviləsinin məzmunu və quruluşu qanunvericiliyin tələblərinə əməl edilməklə tərəflərin razılığı ilə müəyyən edilir.

Əmək müqaviləsində mütləq aşağıdakı əsas şərtlər və məlumatlar göstərilməlidir.

- işçinin soyadı, adı, atasının adı;
- işəgötürənin soyadı, adı, atasının adı;
- işçinin iş yeri;
- işçinin əmək funksiyası;
- işçinin əmək şəraiti;
- əmək müqaviləsinin müddəti
- əmək müqaviləsinin bağlandığı və işçinin işə başlamalı olduğu gün;
- tərəflərin müəyyən etdiyi əlavə şərtlər barədə məlumat.

Əmək müqaviləsi qabaqcadan müddəti müəyyən edilmədən müddətsiz və ya beş ilədək müddətdə bağlanıla bilər.

Yeni Əmək Məcəlləsində ən mühüm yeniliklərdən biri də əmək müqaviləsi bağlanarkən konkret olaraq tərəflərin yaş həddinin müəyyən edilməsidir. Belə ki, Məcəllənin 46-cı maddəsinin IV hissəsində göstərilir ki, əmək müqaviləsi on beş yaşından on səkkiz yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlardan) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır.

Yuxarıdakı maddənin II hissəsində sadalanan cəhətlər ilk dəfə olaraq tərtib edilir. Bunun da həm hüquqi, həm də mənəvi əhəmiyyəti olduqca böyükdür.

Bütövlükdə götürsək Milli Əmək Məcəlləmizin tamamilə sistemləşdirilərək özündə bir sıra mühüm bəşəri dəyərlərə söykənən Beynəlxalq əmək nümunələrini cəmləşdirmiş və yeniləşmişdir. Belə ki, Əmək Məcəlləsinin 48-ci maddəsində bir sıra maraqlı cəhətlər nəzərə çarpır. Bildiyimiz kimi işə qəbul zamanı bir sıra sənədlər işçidən tələb edilir. Belə ki, Əmək müqaviləsi bağalanarkən işçi əmək kitabçası və ya əmək fəaliyyətinin, iş stajı göstərilən sənədi , habelə şəxsiyyəti təsdiq edən sənədi təqdim edir. Məcəllədə ilk dəfə olaraq göstərilir ki, ilk dəfə əmək müqaviləsi bağlanılan şəxslərdən və eləcə də məcburi köçkün və ya qaçqın statusuna malik şəxslərlə, əcnəbilərlə vətəndaşlığı olmayan şəxslərlə fəaliyyətini təsdiq edən sənəd təqdim edilmədən əmək müqaviləsi bağlanıla bilər. Bu prinsip əmək məcəlləsinin demokratikliyini, onun ən üstün cəhətlərini bir daha əyani şəkildə təsdiq edir.

İşəgötürən işə qəbul zamanı fəhlə və qulluqçuya onun əmək hüquqlarını və vəzifələrini, əmək haqqı şərtlərini başa salmaqla, daxili əmək intizamı, iş, dəzgah, maşın və əmək alətləri ilə işləmək qaydaları ilə tanış

etməyə, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə barəsində təlimat verməyə borcludur.

Vətəndaş işə qəbul olunarkən onun tutduğu vəzifəyə uyğun olub-olmadığını yoxlamaq məqsədilə işçi üçün sınaq müddəti müəyyənləşdirilə bilər. Bu müddət onun əmək stajına daxil edilir. Sınaq müddətinin həddi yeni əmək məcəlləsinin 51-ci maddəsi ilə müəyyən edilmişdir. Əmək müqaviləsi sınaq müddəti müəyyən edilməklə bağlanıla bilər. Sınaq müddəti tərəflərin razılığı ilə 3 aydan artıq olmamaq şərtilə müəyyən edilir. İşçi iş qabiliyyətini müvəqqəti itirdikdə və işçinin üzrlü səbəblərə görə işdə olmadığı vaxtlar sınaq müddətinə daxil edilmir. Sınaq müddəti qurtarmış olduqda işçi işi davam etdirərsə, o, sınaqdan çıxmış hesab olunur. Sınağın nəticəsi qənaətləndirici olmazsa işəgötürən işçini vəzifədən çıxara bilər. Belə halda həmkarlar ittifaqı komitəsinin razılığı tələb olunmur. Bundan başqa sınaqdan keçməyənlərə işdən çıxarılmış müavinəti verilir. İşdən çıxarılmasından narazı qalanlar rayon (şəhər) məhkəməsinə, müvafiq hallarda isə tabelik qaydası ilə yuxarı orqana şikayət edə bilərlər.

Mövcud əmək qanunvericiliyinə əsasən, bəzi şəxslərə isə qəbul zamanı sınaq müddəti tətbiq edilmir. Məsələn, on səkkiz yaşına çatmayanlara, təhsilini bitirdikdən sonrakı bir il ərzində məzunlara, müsabiqə ilə müvafiq vəzifəni tutanlara, əlillərə, tərəflərin razılığı ilə müəyyən edilən digər hallarda müəyyən olunur.

Yeni əmək qanunvericiliyinin tələbinə görə sınaq müddəti qurtaranadək tərəflərdən biri, digərinə üç gün əvvəl yazılı xəbərdarlıq etməklə əmək müqaviləsini poza bilər. Sınaq müddəti qurtaranadək tərəflərdən biri əmək müqaviləsinin xitamını tələb etməyibsə, işçi sınaqdan çıxmış hesab olunur.

Əmək qanunvericiliyinin demokratik cəhətlərindən biri də odur ki, işəgötürənlə bağlanılmış əmək müqaviləsi işçinin təşəbbüsü ilə pozula bilər. Bu Azərbaycan Respublikası Əmək Məcəlləsinin 69-cu maddəsində öz əksini tapmışdır. Belə ki, işəgötürənlə bağlanmış əmək müqaviləsini pozmaq istəyən, yəni işdən çıxmaq arzusunda olan hər bir işçi işəgötürəni bir təqvim ayı qabaqcadan yazılı surətdə xəbərdar etməlidir. Ərizə verildiyi sonuncu gün bitdikdən sonra işçi işə çıxmamaq və son haqq-hesabının aparılmasını tələb etmək hüququna malikdir. Bu halda işəgötürən işçinin tələblərini yerinə yetirməyə borcludur.

Müəyyən üzrlü səbəblər olduqda, yəni işçinin başqa işə keçməsi, pensiyaya çıxması, təhsilini davam etdirmək üçün müvafiq məktəbə daxil olması, yeni yaşayış yerinə köçməsi və qanunvericilikdə nəzərdə tutulan digər hallarda işçi ərizəsində göstərdiyi gün əmək müqaviləsini ləğv edə bilər. Bütün bunlarla yanaşı, hamilə qadınların, 8 yaşına çatmayan uşağı olanların, öhdəsində 15 yaşına çatmayan 3 və daha artıq uşağı olan işçilərin əmək müqaviləsinin pozulması təşəbbüsü üzrlü sayılır.

Əmək müqaviləsinin ləğv edilməsi barədə xəbərdarlıq etmiş işçi, 1 ay təqvim günü ərzində ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verə bilər. Bu halda əmək müqaviləsinin ləğv edilməsinə yol verilmir.

Yeni Əmək Məcəlləsinin 70-ci maddəsi ilə işə götürən əmək müqaviləsinin ləğv edilmə əsaslarını müəyyən edir. Qanunvericiliyin tələbinə görə işə götürən də əmək müqaviləsinin ləğv edilmə əsaslarını müəyyən edir. Qanunvericiliyin tələbinə görə işə götürən də əmək müqaviləsini pozmaq hüququna malikdir. Lakin işəgötürən əmək müqaviləsini istənilən vaxt deyil, yalnız qanunvericilikdə müəyyən olunmuş hallar mövcud olduqda poza bilər. Daha dəqiq demiş olsaq işə götürən əmək məcəlləsinin 70-ci maddəsi ilə nəzərdə tutulmuş hallarda işçini işdən çıxara bilər.

- müəssisə ləğv edildikdə
- işçilərin sayı və ya ştatı ixtisar edildikdə
- peşəkarlıq səviyyəsinin, ixtisasının kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə
- işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliyini yerinə yetirmədikdə, yaxud bu məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda.

İşə götürənin təşəbbüsü ilə işdən çıxarılması hallarının hamısı barədə bu məqalədə ətraflı danışmaq imkanı olmadığı üçün onların yalnız bəziləri haqqında məlumat verəcəyik. Məsələn, müəssisə ləğv edildikdə, işin həcminin azalması ilə əlaqədar ştat ixtisar olunduqda işə götürən işçiləri vəzifədən çıxara bilər. Lakin bu da bir həqiqətdir ki, bəzən belə hallara təsadüf edilir və bununla əlaqədar işçilər işdən çıxarılırlar. Müstəqil Azərbaycan Respublikasının yeni əmək məcəlləsinin 64-cü maddəsinin a, b bəndlərində deyilir ki, işçilər o halda işdən çıxarıla

bilərlər ki, müəssisə həqiqətən ləğv olunsun və ya yenidən təşkil olunsun, yaxud onun mülkiyyətçisi dəyişdikdə, orada işçilərin sayı və ştatları ixtisar edildikdə, əks halda bu motivlə, yəni ştat ixtisar edilib deyə, işə götürən işçini işdən çıxara bilməz.

Hər hansı bir müəssisədə işçilərin sayı (ştatı) ixtisar olunarsa, bununla əlaqədar işə götürən və həmkarlar ittifaqı komitəsi azad edilənlərin namizədliyini göstərməlidirlər. Bu məsələ geniş aşkarlıq şəraitində əmək kollektivi şurası ilə birlikdə həll olunmalıdır. İşçilərin sayı və ya ştatı ixtisar edildikdə üstünlük əmək məhsuldarlığı və ixtisas dərəcəsi daha yüksək olan fəhlə və qulluqçulara verilməlidir. Əgər bu göstəricilər üzrə işçilər bərabər hüquqa malikdirsə qanunvericilikdə göstərilən digər hallar nəzərə alınmalıdır. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 78-ci maddəsinə əsasən şəhid ailəsinin üzvlərinə, müharibə iştirakçılarına, əsgər və zabitlərin ailə üzvlərinə, öhdəsində 2 və daha çox 16 yaşına çatmamış uşağı olanlara, özündən savayı ailəsində qazancı olmayanlara, həmin müəssisədə əmək şikəstliyi almış və ya peşə xəstəliyinə tutulmuşlara, qaçqın və məcburi köçkünlərə, təhsil müəssisənin axşam və qiyabi şöbələrində oxuyanlara üstünlük verilir, kollektiv müqavilələrdə və ya əmək müqavilələrində nəzərdə tutulan digər şəxslərə.

İşdən azadetmə ilə əlaqədar işə götürən iki ay əvvəl xəbərdarlıq etməlidir. Bu müddətdə həmin adamların razılığını almadan onları işdən çıxarmaq olmaz. İşçilər isə öz vəzifələrini yerinə yetirməli, daxili əmək qaydalarına, intizama riayət etməlidirlər.

İşə götürən işdən azad ediləcək fəhlə və qulluqçular haqqında işə düzəltmə orqanlarına məlumat verməlidir. Əmək ehtiyatlarının yerləşdirilməsinin daha səmərəli olması üçün həmin məlumatların yuxarı orqanlara da göndərilməsi məqsədə uyğundur.

İşçi ilə əmək müqaviləsini pozmadan qabaq işə götürən həmçinin müəssisədə onun müvafiq işlə təmin olunması məsələsinə baxmalıdır. Bu mümkün deyilsə və ya işçi təklif olunan işdən imtina edərsə, o işdən azad olunur. Əlbəttə işə götürən boş yerlər haqqında yuxarı təşkilatdan və işə düzəltmə orqanlarından aldığı məlumatla işçini tanış edir.

İşçilərin sayı və ştatı ilə əlaqədar işdən azad edilənlər aşağıdakı güzəştlərə malikdirlər:

- onlara bir aylıq orta qazanc məbləğində işdən çıxma müavinəti verilir;
- azad edilən gündən 2 ay keçənədək, işə düzələnə kimi orta əmək haqqı saxlanılır;
- əgər 2 həftə ərzində işə düzəltmə orqanına müraciət etmişsə, lakin ixtisasına, sənətinə və dərəcəsinə uyğun işlə təmin olunmamışsa, müstəsna hallarda orta əmək haqqı 3 aylıq müddətə saxlanılır – işə düzəltmə orqanından verilən arayış bunun üçün əsas sayılır.

İşçilərin sayının və ya ştatın ixtisarı, müəssisənin ləğv edilməsi, onların yenidən təşkil olunması ilə əlaqədar azad edilənlər üçün fasiləsiz iş stajı o vaxt saxlanılır ki, onlar 3 ay ərzində işə girsinlər. Onlara dövlət ictimai sığortası üzrə müavinətlərlə təmin olunmaq, pensiyalara əlavələr almaq və s. güzəştlər verir.

Fəhlə və qulluqçuya çalışdığı müəssisədə başqa iş tapılmadıqda, o nə etməli və harada iş axtarmalıdır? Həmin şəxslər birinci növbədə işə düzəltmə orqanlarına müraciət etməlidirlər. Müəssisənin ləğvi və ya yenidən təşkili haqqında qərar qəbul etmiş orqan və yerli ərazi İcra Hakimiyyəti orqanları onların işlə təmin olunmasına hər tərəfli kömək göstərməlidirlər.

Müəssisələrin, idarələrin, təşkilatların fəhlə və qulluqçuları üçün nümunəvi daxili əmək nizam qaydalarının 9-cu bəndində göstərilir ki, əmək müqaviləsinin pozulması müdiriyyətin əmri, sərəncamı ilə rəsmiləşdirilir. Həm əmrdə və həm də əmək kitabçasında işdən çıxarma səbəbləri haqqında qeydlər qüvvədə olan qanunvericiliyin müddəalarına tamamilə müvafiq surətdə və qanunun müvafiq maddəsinə, bəndinə istinad edilməklə yazılmalıdır. Əmək müqaviləsi xəstəliklə, əlilliklə, qocalığa görə pensiyaya çıxmaqla, ali və ya orta ixtisas məktəbinə, yaxud da aspiranturaya daxil olmaqla əlaqədar olmaqla və qanunvericiliyə görə müəyyən güzəştlər və imtiyazların verilməsi üçün başqa səbəblər üzündən fəhlə və qulluqçunun təşəbbüsü ilə pozulduqda işdən çıxma haqqında qeyd əmək kitabçasına həmin səbəblər göstərilməklə yazılır.

İşdən çıxarkən əmək kitabçası fəhlə və qulluqçuya işdən çıxdığı gün verilir və həmin gün onunla qəti haqq-hesab çəkilməlidir.

Fəhlə və qulluqçu işdən çıxarkən müəssisədən, idarədən, təşkilatdan ona düşən məbləğlər onun işdən çıxdığı gün verilir. İşçi işdən çıxdığı gün işləməmişsə, müvafiq məbləğlər onun haqqı-hesab çəkilməsini tələb etdiyi vaxtdan ən gec bir gün sonra verilməlidir.

İşdən çıxarkən işçiyə düşən məbləğlərin miqdarı haqqında mübahisə əmələ gəldikdə müdiriyyət iddia etmədiyi məbləği bütün hallarda qanunvericiliyə müvafiq müddətdə verməyə borcludur.

Əgər işçiyə əmək kitabçasının verilməsi müdiriyyətin təqsiri üzündən incidilərsə, onda işçiyə bütün məcburi proqul müddəti üçün orta əmək haqqı verilir.

Qüvvədə olan əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda əmək müqaviləsi pozulduqda işçiyə işdən çıxarma müavinəti dedikdə, işçinin təqsiri olmadan əmək müqaviləsi pozulduqda işçiyə birdəfəlik ödənilən pul məbləği nəzərdə tutulur. Mövsümü işçilər işdən çıxarıldıqda isə üç günlük orta əmək haqqı məbləğində işdən çıxma müavinəti ödənilir. Əgər müvəqqəti və mövsümü işçilər hərbi xidmətə çağırılarsa və daxil olarsa onda onlara ümumi əsaslarla 2 həftəlik orta qazanc məbləğində işdən çıxarma müavinəti verilir.

## SUAL VƏ CAVABLAR

1. Uşağın tərbiyəsində atanın, yoxsa ananın hüquq və vəzifələri böyükdür?

-Uşağın tərbiyəsində valideynlərin hüquq və vəzifələri bərabərdir.

2. Uşaqların neçə yaşdan əmək hüquqları yaranır?

-Uşaqların 15 yaşdan əmək hüquqları yaranır.

3. Yetkinlik yaşına çatmayan uşaqlar nə vaxtdan cinayət məsuliyyətinə cəlb edilə bilər?

- On dörd yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb oluna bilər.

4. Uşaqların əmlak hüquqları varmı?

- Bəli, uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüququ var və hər bir uşağın valideynlərin əmlakına dair vərəsəlik və onların əmlakı hesabına saxlanmaq hüququ var.

5. Uşaqların orta təhsil almaları tam könüllüdürmü?

- Uşaqların təhsil hüququ var və ümumi orta təhsil hər bir uşaq üçün icbaridir.

6. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət tərəfindən yardım göstərilirmi?

- Bəli, valideynlərini itirmiş uşaqlar tam dövlət təminatındadır – yəni bu uşaqlar pulsuz yemək, paltar və ayaqqabı dəsti ilə tmin olunur, onların yaşaması, təhsil alması və tibbi xidmət alması və ya onların tam dəyəri dövlət büdcəsi hesabına ödənilir. Bundan əlavə işə götürənlər hər 50 iş yerindən birini valideyn himayəsindən məhrum uşaqlar üçün nəzərdə tutmalıdır. Əks təqdirdə qanuna müvafiq surətdə cərimə ödəyirlər.

7. Uşağın hüquqlarını və qanuni mənafelərinin müdafiəsi kimlər tərəfindən həyata keçirilir?

- Uşağın hüquqları valideynlər, müəyyən hallarda isə müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən müdafiə edilir.

## SUAL VƏ CAVABLAR

**Sual:** Müddətli əmək müqaviləsi işçinin təşəbbüsü ilə vaxtından əvvəl pozula bilərmi?

**Cavab:** Müddətli fərdi əmək müqaviləsi işçinin təşəbbüsü ilə o zaman pozula bilər ki, müqavilə üzrə yerinə yetirərkən işi (vəzifə) onun səhhətinə mənfi təsir göstərsin və ya iş verən tərəfindən əmək müqaviləsinin, kollektiv müqaviləsinin şərtləri pozulsun, yaxud da başqa üzrlü səbəblər olsun.

**Sual:** Hansı hallarda əmək müqaviləsi işə götürənin təşəbbüsü ilə vaxtından əvvəl pozula bilməz?

**Cavab:** Müəssisənin ləğv edildiyi hallar istisna olmaqla işçi əmək qabiliyyətinin müvəqqəti itirdiyi dövrdə, məzuniyyətdə, ezamiyyətdə olduğu müddətdə kollektiv danışıqlarda iştirak etdiyi vaxt ərzində, habelə hamilə qadınların, 3 yaşınadək uşaqları olan anaların, yeganə qazancı həmin müəssisədə olan, məktəb yaşınadək uşaqları təkbaşına böyüdən işçilərin və eləcə də qanunvericilikdə nəzərdə tutulan digər hallarda fərdi əmək müqaviləsinin işə götürənin təşəbbüsü ilə ləğv edilməsinə yol verilmir.

**Sual:** Qeyri müəyyən müddətdə bağlanmış əmək müqaviləsi işə götürənin təşəbbüsü ilə birtərəfli qaydada müddətli əmək müqaviləsi ilə əvəz oluna bilərmi?

**Cavab:** Xeyr, buna yol verilmir. Əmək qanunvericiliyinə əsasən müddəti müəyyən edilmədən bağlanmış fərdi əmək müqaviləsi hər 2 tərəfin (işə götürən və işçinin) razılığı olmadan bir tərəfli qaydada müddətli fərdi əmək müqaviləsi ilə əvəz edilə bilməz.

**Sual:** Hansı hallarda vətəndaşlara pensiya təyin edilir?

**Cavab:** Vətəndaşlar qocaldıqda, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, xidmət illərinə görə, habelə ailə başçısını itirdikdə pensiya almaq hüququna malikdirlər.

**Sual:** Yaşa görə pensiya necə təyin edilir?

**Cavab:** Yaşa görə pensiya hüququna kişilər 63 yaşına çatdıqda və azı 25 il iş stajı olduqda, qadınlar 57 yaşına çatdıqda və azı 20 il iş stajı olduqda malikdirlər.

**Sual:** Pensiya təyin edilməsi haqqında sənədlərə hansı müddətdə baxılır?.

**Cavab:** Pensiya təyin edilməsi haqqında sənədlərə pensiya təyin edən orqanlar, onların daxil olduğu vaxtdan ən gec 10 gün keçənədək baxırlar.

**Sual:** İşləyən vətəndaş pensiya təyin edilməsi haqqında ərizəni hara verməlidir?

**Cavab:** İşləyən vətəndaşlar və onların ailə üzvləri pensiya təyin edilməsi haqqında ərizəni axırıncı iş yerinin müdiriyyətinə verməlidirlər.

**Sual:** İşləyən pensiyaçıların pensiyaları hansı qaydada ödənilir?

**Cavab:** İşləyən pensiyaçıların pensiyaları qeydiyyatdan asılı olmayaraq faktiki yaşayış yeri üzrə ödənilir.

**Sual:** Ailə başçısı itirildikdə pensiya hansı müddət üçün təyin edilir?

**Cavab:** Ailə başçısı əmək zədəsi, peşə xəstəliyi bədbəxt hadisə və ya ümumi xəstəlik nəticəsində vəfat etmişdirsə, ounun ailə üzvlərinə pensiya ailə başçısının vəfat etdiyi vaxtdan asılı olmayaraq ümumi əsaslarla təyin edilir.

**Sual:** İş vaxtını sübut edən əsas sənəd olmadıqda iş stajı necə müəyyən edilir?

**Cavab:** Əmək fəaliyyəti barədə sənəd olmadıqda və ya həmin sənədi bərpa etmək mümkün olmadıqda iş stajı məhkəmədə baxılıb həll edilir.

**Sual:** Bir pensiyadan digər pensiyaya keçirilmə necə aparılır?

**Cavab:** Bir pensiyadan digər pensiyaya keçirilmə lazımi əlavə sənədlər təqdim edilməklə ərizənin verildiyi gündən aparılır.

**Sual:** Pensiyaçı tərəfindən vaxtında alınmamış pensiya necə ödənilir?

**Cavab:** Vaxtında alınmamış pensiyanın məbləği bunun üçün müraciət edilən vaxtdan əvvəlki dövrün ən çoxu 3 ili üçün ödənilir. Pensiyaları təyin edən orqanın təqsiri üzündən vaxtında alınmamış pensiyaların məbləği heç bir müddət məhdudiyyəti qoyulmadan bütün dövr üçün ödənilir.

**Sual:** Əmək müqaviləsi nəyə deylilir?

**Cavab:** Əmək müqaviləsi işə götürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir.

**Sual:** Kollektiv əmək mübahisəsi nədir?

**Cavab:** Əmək məcəlləsinin 3-cü maddəsinin 15-ci bəndinə görə kollektiv əmək mübahisəsi – kollektiv tələblərdən tərəfindən törəyən fikir ayrılığıdır.

**Sual:** Əmək müqaviləsində tərəflər kimlərdir?

**Cavab:** Əmək məcəlləsinin 42-ci maddəsinin 2-ci bəndinə əsasən əmək müqaviləsində tərəflərdən biri işə götürən digəri isə işçidir.

**Sual:** Əmək müqaviləsinin müddəti nə qədər müəyyən edilə bilər?

**Cavab:** Əmək müqaviləsi qabaqcadan müddəti müəyyən edilmədən (müddətsiz) və ya 5 ilədək (müddətli) bağlanıla bilər.

**Sual:** Nikah yaşı necə müəyyən olunur?

**Cavab:** Ailə məcəlləsinin 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunur. Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakmiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azadılmasına icazə verə bilər.

**Sual:** Nikahın bağlanma şərtləri hansılardır?

**Cavab:** Ailə məcəlləsinin 11-ci maddəsində deyilir ki, nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı və onların nikah yaşlarına çatmaları zəruridir.

**Sual:** Nikaha xitam verilməsinin əsasları hansılardır?

**Cavab:** Azərbaycan Respublikası Ailə Məcəlləsinin 14-cu maddəsinə əsasən ər (arvad) öldükdə, yaxud məhkəmə qaydasında ölmüş elan edildikdə nikaha xitamı verilir. Ərin (arvadın) və ya onların hər ikisinin ərizəsi əsasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) qəyyumunun ərizəsi əsasında nikaha xitam verilə bilər.

**Sual:** Xəstələnmiş ailə üzvlərinə qulluq etmək üçün verilən məzuniyyət zamanı müavinət verilirmi?

**Cavab:** Xəstələnmiş ailə üzvlərinə qulluq etmək üçün verilən məzuniyyət zamanı müavinət, bu şərtlə verlir ki, xəstəyə qulluq elimməməsi xəstənin həyatı və ya sağlamlığı üçün qorxu törətsin və tibbi göstərişə görə xəstəxanaya qoymaq imkanı olmasın.

**Sual:** Əgər işçi əsas iş yerindən əlavə başqa müəssisədə də müqavilə üzrə işləyirsə, bu zaman işçiyə müavinət necə ödənilir?

**Cavab:** İşçi əsas iş yerindən əlavə başqa müəssisədə də müqavilə üzrə işləyirsə, bu zaman müavinət işçinin hər iki iş yerində aldığı ümumi qazancın əsasında hesablanır və əsas iş yerində müəyyən olunmuş stavkanın ikiqat məbləğindən artıq olmamaq şərti ilə ödənilir.

**Sual:** Hamiləliyə və doğuma görə müavinət hansı miqdarda ödənilir?

**Cavab:** Hamiləliyə və doğuma görə müavinət bütün hallarda qazancın 100%-i miqdarında verilir və müraciət müddəti məhdudlaşdırılmadan ödənilir.

**Sual:** Uşaq ölü doğulduqda müavinət verilirmi?

**Cavab:** Uşaq ölü doğulduqda müavinət verilmir.

**Sual:** Hamilə qadınla müqavilə bağlamaqdan imtina edilərsə o nə etməlidir?

**Cavab:** Əmək məcəlləsinin 240-cı maddəsinə əsasən hamilə və ya 3 yaşına çatmamış uşağı olan qadınla əmək müqaviləsi bağlamaqdan imtina edilərsə o hüququnun müdafiə edilməsi üçün məhkəməyə müraciət edə bilər.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası. «Hüquq ədəbiyyatı» nəşriyyatı. Bakı-2002

2. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası. «Qanun» hüquq jurnalı, №5, 1997.

3. «Qadın hüquqları, Azərbaycan Respublikasının əmək Qanunvericiliyi, Beynəlxalq Konvensiyalar». «Qanun» nəşriyyatı. Bakı-2002

4. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının qanunu. Bakı-1999

5. Azərbaycan Respublikasının əmək məcəlləsi. Bakı-1999

6. İsmayılov İ, Əmirov M «Konstitusiyanın əsasları». Bakı-1998

7. Manayev Q.İ «Sovet ailə hüququ». Bakı-1989

8. Əsgərov Z.A «İnsan və vətəndaş hüquqlarının Bəyannaməsi». «Ədalət» qəzeti, 1 may-1992, 18 may-1992-ci illər.

9. Əsgərov Z.A «Hüquqi dövlət Konstitusiyasının formalaşması» Bakı-1992

10. Xropanök V. 11. Teoriə qosudarstva i prava. M., 1993

11. Boyars Ö.R Voprosı qrajdanstva v mejdunarodnom prave. M-1986

12. Berejno A.Q Prava liçnosti: nekotorıe voprosı teorii. M-1901

13. Zahita prav çeloveka v usloviəx perexoda k rınku. Qosudarstvo i pravo. 1993 Q, №6

14. Mejdunarodnaə zahita svobod çeloveka (sb. dokumentov). M-1990

15. Əsgərov Z.A «Hüquqi dövlətin Konstitusiyası hansı prinsiplərə əsaslanmalıdır». «Azərbaycan» qəzeti, 25.10.1997

16. Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il)

17. Azərbaycan Respublikasının Ailə Məcəlləsi (31 mart 2001-ci il)

18. «Azərbaycan qadınları» jurnalı (Bakı-1999) BMT-nin inkişaf proqramı

19. Ər və arvad nikah müqaviləsini bağlamaqdan əvvəl bunları bilməlidir (Bakı-2003) «Tolerans» insan hüquqlarının müdafiəsi ictimai Birliyi

20. Qadın Hüquqlarının Pozulmasının Bütün Formalarının Aradan Qaldırılması Haqqında Konvensiya

21. Qadınların vəziyyəti üzrə IV Ümumdünya Konfransının materialları

22. İ.İsmayılova, A.Qasımov. İnsan və vətəndaş hüquqlarının məhkəmə müdafiəsi. (Bakı-Qanun-2000)

23. Rəsulov M., Qasımov A. Əmək hüququ (Bakı 1996)

24. Ələsgərov F.M. «İnsan hüquqları və azadlıqlarının qorunması Azərbaycan dövlətinin ali məqsədidir» (Xalq qəzeti 31 mart 1998. № 68)

25. «İnsan və vətəndaş hüquqlarının azadlığının təmin edilməsi sayəsində tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli fərmanı.

26. Əsgərov Z.A. «Yeni Konstitusiya sabitliyin təminatçısı olmalıdır. «Azərbaycan» qəzeti 13 oktyabr 1995-ci il.

**A.H.Dəmirov, Ş.N.İsmayılov, Q.F.Hüseynov**

İnsan və vətəndaş hüquqları, onların təminatı

*Dərs vəsaiti*

Bakı – Mütərcim – 2010

**Operator:**
Nail İsmayılov

*Kitab «Mütərcim» TM Nəşriyyat-Poliqrafiya Mərkəzində*

*səhifələnmiş və çap edilmişdir.*

---

Çapa imzalanıb: 15.12.2010.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 5 ç.v. Tiraj: 100. Sifariş № 114.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM
ТЯРЪЦМЯ
ВЯ НЯШРИЙЙАТ-ПОЛИГРАФИЙА